www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 dekabr 2025-ci il Çərşənbə axşamı № 223 (8833) Qiymətі 60 qəpik

**Xəbər**

## Ən etibarlı sobalar - "səssiz qatil" fəlakəti davam edir

yazısı səh.11-də

**Gündəm**

### Bakı-Tehran əlaqələrində yeni mərhələ



Prezident İran XİN rəhbərini qəbul etdi; Əraqçi dövlət başçısının səfərini gözlədiklərini açıqladı

yazısı səh.9-da

### Azərbaycan üç super ordu ilə təlimdə - İrəvan yenə təlaşlandı

yazısı səh.6-da

### Erməni kilsəsi Paşinyana qarşı "son döyüş"ə start verdi

yazısı səh.5-də

### Əsgərlərimiz Qəzzaya gedəcəkmi? - Nazir ilk dəfə danışdı

yazısı səh.7-də

### Bakıdan pul aldığı deyilən konqresmen əfv edildi - boşa çıxan hiylə

yazısı səh.4-də

### Trampın səbri daşır: Ukrayna üçün son həmlə

yazısı səh.6-da

### Brüsselin bitməyən həyasızlığı - Azərbaycandan sərt reaksiya

yazısı səh.13-də

### Əbülfəs Qarayevin qızı məhkəməyə verilir - hansı cəza gözləyir?

yazısı səh.12-də

### Azərbaycan nüfuzlu agentliklə əməkdaşlığı dayandırdı: hansı nəticələr ola bilər?

yazısı səh.14-də

### Uşaq doğulan kimi hesabına 1000 dollar... - yeni layihə

yazısı səh.15-də

# BAKININ YARATDIĞI TARİXİ FÜRSƏT - YENİ SÜLH MODELİ

Hikmət Hacıyev və Armen Qriqoryan Dohada mühüm mesajlar verdi; 2026 yekun sənədin imzalanma ili olacaqmı? - gözlənti



yazısı səh.8-də

## Ölkəni bürüyən yanğınlar - səhlənkarlıq, təxribat, yoxsa...

Azərbaycanda ard-arda yanğın hadisələri faciəvi ölümlərə səbəb olub; ekspertlər FHN-i dərin araşdırmalar aparmağa səslədi

yazısı səh.12-də



### Əli Kərimlinin növbəti fiaskosu - "Hanı ağlayan fanatlar?.."

yazısı səh.3-də



### Putindən sensasiya "SSRİ-2" açıqlaması - blef, yoxsa...

yazısı səh.10-da



*Anar:*

### "Zərdabinin heykəli restoranın qapıçısı kimi görünür"

yazısı səh.3-də

# Qanun dəyişir, 8 min manat kimlərə veriləcək?



**"Azərbaycanda yeni müavinətin verilməsinə başlanılacaq. Belə ki, "Dövlət qulluğu haqqında" Qanuna təklif edilən dəyişikliklərə əsasən, bir sıra hallarda vətəndaşlara yeni birdəfəlik müavinətin verilməsi nəzərdə tutulur".**

Teleqraf xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, qanuna əsasən, dövlət qulluqçusu vəfat etdikdə, habelə məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə dövlət qulluğuna xitam verilə bilər: "Bu əsasla dövlət qulluğuna xitam verildikdə dövlət qulluqçusunun vərəsələrinə orta aylıq dövlət məvacibinin dörd misli miqdarında müavinət ödəniləcək.

2024-cü ilin yekunlarına əsasən, dövlət qulluqçularının sayı 27,4 min nəfərdir və onların orta aylıq nominal məvacibi təxminən iki min manatdır. Bu o deməkdir, yeni müavinətin məbləği orta hesabla 8 min manat (orta aylıq dövlət məvacibi - 2 min manat X 4) olacaq. Bu müavinətin təyinatında məqsəd vətəndaşlarımızın sosial təminatını daha da gücləndirmək və dövlət qulluqçularının ailələri üçün sosial müdafiə imkanlarını genişləndirməkdir".



## Azərbaycan Ermənistana neft satacaq

**Gürcüstan Azərbaycan neft məhsullarının Ermənistana ilk tranzitinə rüsum tətbiq etməyəcək.**

Modern.az xəbər verir ki, bu barədə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin bəyanatında deyilir.

"Gürcüstan hökuməti bu il dekabrın 5-də tərəfdaş ölkə kimi Azərbaycandan yanacağın tranziti ilə bağlı rəsmi müraciət alıb. Baş nazir İrakli Kobaxidzenin qərarı ilə "Gürcüstan Dəmir Yolları"na sözügedən yükün tarif tətbiq edilmədən daşınması barədə dərhal tapşırıq verilib", - məlumatda deyilir.

Qeyd olunub ki, Gürcüstan Azərbaycan və Ermənistanın strateji və etibarlı tərəfdaşı olub və olmaqda davam edir, həmçinin regionda sülh və sabitliyi dəstəkləyir.

Xatırladaq ki, Prezident İlham Əliyev bu il oktyabrın 21-də Qazaxıstanda səfərdə olarkən Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırdığını bəyan etmişdi. Bu il noyabrın 5-də Rusiya buğdası Azərbaycan üzərindən daşınmaqla Ermənistana çatdırılıb. Bundan başqa, Qazaxıstan buğdasının yüklənmiş olduğu qatarlar Azərbaycan ərazisindən keçməklə noyabrın 8-də Ermənistana çatıb.

## İş adamının milyonlarla pulunu ələ keçirənlər yaxalandı



**Azərbaycanda iş adamının milyonlarla pulu ələ keçirilib. Şikayət əsasında biri keçmiş idman federasiyası prezidenti olmaqla, beş nəfər cinayət məsuliyyətinə cəlb edilib.**

Qafqazinfo xəbər verir ki, dəstə üzvləri iş adamı Quvat Beybutovun 4 milyon manatdan çox pulunu dələduzluqla ələ keçirməkdə ittiham olunurlar.

2022-ci ilə kimi Sindo-ryu və Pençak-silat Federasiyasının prezidenti olmuş Ceyhun Əşrəfov və tanışları - Cavid Hüseynli, Rüstəm Qafarov, Seymur Məhərrəmov və Zaur Qurbanovun birgə dələduzluq əməli barəsində Baş Prokurorluğa əsaslı materiallar daxil olub.

Şikayətlə bağlı aparılan araşdırma nəticəsində məlum olub ki, Ceyhun Əşrəfov yuxarıda adları qeyd olunan tanışları ilə birlikdə Quvat Beybutova yalan vəd verib. Belə ki, onlar iş adamını Nəsimi rayonunda yerləşən 968-ci məhəllədəki fərdi yaşayış evlərinin sökülməsi və əvəzində çoxmərtəbəli binanın tikintisi üçün Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən icazənin alınacağına inandırıblar.

Məsələnin həll edilməsi üçün isə dəstə üzvləri Q.Beybutovdan hissə-hissə olmaqla ümumilikdə 4 milyon 19 min manat alıblar. Lakin onlar verdikləri vədə əməl etməyib, nəticədə xüsusilə külli miqdarda dələduzluq cinayəti törətmiş olublar.

Prokurorluq zərərçəkmişə vurulmuş ziyanın 1 milyon 442 min manatını ödətdirib. C.Əşrəfov barəsində bir neçə gün əvvəl məhkəmə qərarı ilə ev dustaqlığı qətimkan tədbiri seçilib. Digərləri - Cavid Hüseynli, Rüstəm Qafarov, Seymur Məhərrəmov və Zaur Qurbanov isə həbs ediliblər. Qeyd edək ki, zərərçəkmiş iş adamı Quvat Beybutov bir neçə il əvvəl deputatlığa namizəd olub.

## Ana həbsdəki oğlu üçün telefon keçirmək istədi...



**Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin əməliyyat aparatının əməliyyat-axtarış tədbirləri nəticəsində 11 saylı cəzaçəkmə müəssisəsinə mobil telefon keçirilməsinin qarşısı alınıb.**

Bu barədə Axar.az-a nazirlikdən məlumat verilib.

Bildirilib ki, məhkumla qısamüddətli görüşə gəlmiş anasının üzərinə və əşyalarına baxış keçirilən zaman ona məxsus əl çantasının gizli saxlanc yerində gizlədilmiş, daxilində danışıq kartı olan 1 ədəd "Samsunq" markalı mobil telefon aparatı aşkar olunub.

Faktla bağlı araşdırma aparılır.

Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxslərə qadağan olunmuş əşyaların verilməsi və ya ötürülməsinin cinayət məsuliyyətinə səbəb olduğu bir daha vətəndaşların diqqətinə çatdırılır.

## Türk ölkəsində cinayət işi açıldı, Bakıya göndərildi

**Qazaxıstanda qumar oyunlarının təşkili və keçirilməsi qaydasını tənzimləyən qanunvericiliyin tələblərini pozaraq qanunsuz qumar biznesinin həyata keçirilməsi ilə məşğul olan qrup aşkarlanıb.**

Axar.az xəbər verir ki, bu barədə Qazaxıstan Prokurorluğu məlumat yayıb.

Bildirilib ki, cinayətkar sxemin əsas təşkilatçılarından biri xarici dövlətin (Azərbaycan) vətəndaşıdır və o, Qazaxıstan ərazisindən kənarda qanunsuz qumar biznesinə texniki dəstək və maliyyə idarəetməsi təmin edib və cinayət yolu ilə əldə edilmiş vəsaitlərin hərəkətinə nəzarəti həyata keçirib.

"Xarici vətəndaşın Qazaxıstan Respublikasından kənarda olması səbəbindən cinayət işi təqib olunması üçün Azərbaycana göndərilib. Cinayətkar qrupun digər üzvü ilə bağlı məhkəməyəqədər istintaq başa çatıb, cinayət işi məhkəməyə göndərilib və baxışdan sonra ona azadlıqdan məhrum etmə cəzası verilib", - məlumatda bildirilib.

## Məmməd İbrahim barəsində qərar verildi



**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən saxlanılan AXCP Rəyasət Heyətinin üzvü Məmməd İbrahim barəsində qətimkan tədbiri seçilməsi ilə bağlı qərardan verilən apelyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib.**

APA xəbər verir ki, dekabrın 8-də Bakı Apelyasiya Məhkəməsində keçirilən prosesdə qərar qəbul edilib.

Apelyasiya şikayəti təmin edilməyib, həbs-qətimkan tədbirinin seçilməsi barədə qərar qüvvədə saxlanılıb.

Qeyd edək ki, Səbayel Rayon Məhkəməsinin qərarı ilə M. İbrahim barəsində 2 ay 15 gün müddətinə həbs-qətimkan tədbiri seçilib. Ona Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə və ya onu zorla saxlamağa, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham irəli sürülüb.

Xatırladaq ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimli və partiyanın Rəyasət Heyətinin üzvü Məmməd İbrahim barələrində aparılan araşdırma çərçivəsində DTX-də dindiriliblər.

Onların evində axtarış aparıldıqdan sonra DTX-yə aparılıblar. Əli Kərimlinin və Məmməd İbrahimin evindəki axtarış və dindirilmə Ramiz Mehdiyevin DTX-də istintaq olunan cinayət işi ilə əlaqədardır.

Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunur.



## Bir ailənin 4 üzvü zəhərləndi

**Bərdə rayonunda bir ailənin 4 üzvü qidadan zəhərlənib. Modern.az xəbər verir ki, dekabrın 7-si saat 08 radələrində 1968-ci il təvəllüdlü Vüqar Həmid oğlu Əliyev, arvadı 1968-ci il təvəllüdlü Elza, oğlu 1994-cü il təvəllüdlü Şəmistan və onun arvadı 2006-cı il təvəllüdlü Təhminə Əliyeva yaşadıqları Xanərəb kəndindəki evlərində qidadan (pomidor turşusu) zəhərlənməklə xəstəxanaya gətiriliblər. Onlardan Təhminə Əliyevanın vəziyyəti ağır, digərlərinin isə qənaətbəxşdir. Araşdırma aparılır.**



## Bakıda Şaxta baba olmaq istəyən yoxdur

**Yeni il bayramına sayılı günlər qalsa da, Bakıda Şaxta baba və Qar qızı personajlarına rast gəlinmir. Qeyd edək ki, paytaxtda Şaxta baba və Qar qızı olmaq istəyənlər Bakı Şəhər İcra Hakimiyyətindən icazə almalı, müəyyən rüsum ödəməlidir. Modern.az məsələ ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinə sorğu ünvanlayıb. Qurumdan verilən açıqlamada bildirilib ki, bugünədək Şaxta Baba və Qar Qızla bağlı heç bir müraciət daxil olmayıb.**

## Nazirlik məşhur klinikada yoxlama keçirdi

**Səhiyyə Nazirliyi Bakıda fəaliyyət göstərən "Premium Clinic"də plandankənar yoxlama keçirib.**

"Unikal" Teleqraf-a istinadən xəbər verir ki, özəl klinikada yoxlama keçirilən zaman lisenziyadan kənar (ginekoloji iş stasionar) tibbi fəaliyyətin və sertifikatsız tibbi fəaliyyətinin təşkil olunması aşkar edilib.

Nazirlik İnzibati Xətalar Məcəlləsinin 215.1 və 215.4-cü maddələrinin tələblərini pozduğu üçün klinika barədə inzibati protokol tərtib edərək Nəsimi Rayon Məhkəməsinə göndərib.

Məhkəmənin qərarına əsasən, "Premium Clinic" 6000 manat məbləğində cərimələnib.

Qeyd edək ki, "Premium Clinic"in təsisçi direktoru Mübariz Nağıyevdir. Sözügedən klinika oktyabr ayında ora müalicə üçün yollanan qadının ölümü ilə gündəmə gəlmişdi.

YENİ MÜSAVAT
N 223 (8833) 9 dekabr 2025

**"Bu il AXCP-nin partiya olaraq qurulmasının 30 illiyidir. Əli Kərimli 30 ildir partiyaya faktiki sədrlik edir. İstiqlal hərəkatının - AXC-nin əsas mülkiyyətinə sahiblənən partiyanın sədri kimi həbs olunasan, guya ana müxalifətin liderisən, yazıların beynəlxalq mətbuatda çıxa, beynəlxalq təşkilatlara dəvətlər alasan, həbsinə beynəlxalq reaksiyalar ola, FB səhifəni 200 mindən çox adam izləyə, xaricdən yayımlanan televiziyaların ola, təşkilatı strukturunda əsasən troll kimi olsa da, çalışan 300 fəalın ola, amma məhkəməyə 30 adam gələ".**

# Əli Kərimlinin növbəti fiaskosu - "Hanı ağlayan fanatlar?..."

## AXCP sədrinin məhkəməsinə heç 30 tərəfdarı gəlmədi - səbəb



Bu sözlərin müəllifi uzun müddət AXCP sıralarında olan, AXCP sədrliyinə namizədliyini verən və bu iddiasına görə də partiyadan uzaqlaşdırılan Sahib Kərimlidir.

O bildirib ki, "məhkəməyə 30 adam gələ bilirsə, şəkil çəkdirə bilirsə, 30 min də gələ bilər" iddiası gülüncdür: "Bu boyda qondarma status və imkanlarla, bu necə liderlikdir ki, 30 il sədri olduğun partiyada sənin üçün özünü fəda etməyə 30 adam yoxdur. Hanı emosiyalarına hakim ola bilməyib ağlayan fanatların? Hanı həbsdə səni qorumaq üçün qəsdən həbsə düşən aşiqlərin? O boyda təşkilatı və ideyanı xərcləyib, otuz ilin hər bir ilinə cəmi bir nəfər məhkəmədə şəkil çəkdirməyə kadr yetişdirən partiya sədrini ölməyə qoymamaq üçün, onu həbs etmək son çarədir".

Xatırladaq ki, Səbayel Rayon Məhkəməsinin qərarı ilə Əli Kərimli 2 ay 15 gün müddətinə həbs edilib. O, AR Cinayət Məcəlləsinin 278.1-ci (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə şübhəli şəxs qismində tanınıb. Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyatla saxlanılan Əli Kərimlinin barəsində seçilən həbs-qətimkan tədbirindən verilən apelyasiya şikayətinə dekabrın 5-də baxılıb. Şikayət təmin edilməyib.

AXCP sədri Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin cinayət işi üzrə istintaqa cəlb olunub.

**AĞ Partiya başqanı Tural Abbaslı "Yeni Müsavat"a bildirdi ki, liderlərin real siyasi qüvvəsini göstərmək, yaxud təsbit etmək mexanizmləri zəifdir:** "Ona görə də kimin səsi ucadan çıxırsa, kimin 3-5 nəfər xaricdə və ya daxildə adamı varsa, "mən böyük liderəm" deyib ortalığa çıxa bilir. Amma real seçkilər, rəqabət olsa, hər kəsin liderliyinin böyüklüyü, partiyasının strukturlarının nə qədər dayanıqlı olduğu görünər. İndi şübhə doğurmur ki, bu partiyanın da illərlə gündəmdə olması hakimiyyət daxilində hansısa qüvvələrin marağında olub. Mümkündür ki, onları olmadıqları gücdə göstəriblər. Real güc nümayiş etdirmək lazım gələndə mövcud durum yaranır".

**T.Abbaslı qeyd etdi ki, "Siyasi partiyalar haqqında" Qanun qəbul ediləndən sonra bir çox təşkilatın real gücü ortalığa çıxdı:** "Qanuna əsasən, 5 min üzv sayı təqdim etməlisən. Dünənə qədər yüzminlərlə üzvü olduğunu iddia edənlər minimum tələbi güc-bəla ilə verdilər. Ondan sonra həqiqət üzə çıxdı ki, hansı partiyanın gücü nə qədərdir. İndi bu liderlik məsələsində də xüsusi qruplar vasitəsilə özünün çıxışının paylaşımlarını təmin etmək, sosial şəbəkələrdə saxta bəyənmələr və özünü lider kimi təqdim etməyə cəhdlər var idi. Hətta belə fikirlər də səslənirdi ki, Əli Kərimli saxlanılsa, Azərbaycan bir-birinə dəyər. Mən heç kimin saxlanılmasına sevinmirəm. Bunun da tərəfdarı deyiləm. Amma hər kəs etdiyi hərəkətlərə, atdığı addımlara görə cavab verməlidir. Bizim mövqeyimiz bu məsələdə odur ki, adama özünü müdafiə etmək üçün qanunvericilikdə nəzərdə tutulmuş hüquqları tanınmalı, şərait yaradılmalıdır ki, özünü müdafiə etsin. Haqlıdırsa, azadlığa çıxsın. Haqsızdırsa, hamı kimi cəzasını çəksin. Zamanla hər şey qaydasına düşəcək. Cəmiyyət zamanla kimin kim olduğunu görəcək. Partiyaların, siyasi liderlərin hansının hansı gücdə olduğu mütləq görünəcək.

Ümid edirəm ki, proseslər o istiqamətdə inkişaf edəcək".

**Deputat Vüqar İskəndərov Araiklə AXCP sədrinə heç bir fərq qoymadığını qeyd etdi:** "Hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər etdirmək, dövlətə xəyanətdir, dövlətə xalqa düşmənçilikdir. Əslində, Əli Kərimli ilə bağlı atılan bu addımlar çoxdan olmalıydı. Çünki bu adam partiyanı siyasi fəaliyyət kimi yox, öz ambisiyaları üçün istifadə edirdi. Ona bu tapşırıqları görünür, verən var imiş. Əli Kərimli o qədər düşmən mövqeyə çəkilmişdi ki, iqtidarla dialoqa gedən müxalif partiyaları da tənqid və təhqir hədəfinə alırdı. Ancaq anlamırdı ki, müxalifətin də iqtidarın əsas məqsədi dövlətin inkişafı olmalıdır, ikitirəlik salmaq yox!"

**Onun sözlərinə görə, 30 il ərzində Əli Kərimli ancaq ona inanan bəzi insanları qurban verməklə məşğul oldu:** "Partiyasında 1 nəfər də olsun lider yetişdirə bilmədi ki, həmin gənc siyasi fəaliyyətlə məşğul olsun. Hətta vaxtilə AXCP sıralarında olan, AXCP sədrliyinə namizədliyini verən Sahib Kərimli də bu iddiasına görə partiyadan uzaqlaşdırılmışdı.

30 il ərzində ancaq öz cibini doldurmaq, övladını xaricdə yağ-bal içində yaşatmaqla partiyasını da, onun üzvlərini də sanki xərclədi. Hər dəfə partiya fəalları müəyyən qanunsuzluqlarla həbs ediləndə sanki onlara təzyiq var kimi göstərirdi. Ancaq özü bir dəfə də olsun heç bir təzyiqlərlə üzləşmədi. Araşdırmalar göstərir ki, o, sən demə, Ramiz Mehdiyevin çətiri altında imiş.

Əli Kərimlinin işi-gücü ancaq beynəlxalq arenalarda səs-küy salmaq, onun-bunun ətəyindən tutaraq hakimiyyətə gəlmək sevdası olmuşdu. Onun-bunun minnəti ilə hakimiyyətə gələn nə idarəçilik edə bilərdi axı?! Əli Kərimlinin məqsədi dövlətin sütunlarını tərpətmək, dövlət içində çaxnaşma yaratmaqdan başqa bir şey olmayıb. Çünki onun kimilər üçün dövlət, vətən anlayışı ancaq sahiblərini razı salmaqdan ibarətdir. 90-cı illərdə bu partiyanın bölünməsi, fikir ayrılığı da göstərdi ki, Əli Kərimli heç vaxt normal müxalifətçilik etmək istəməyib. Adamın xəstə təfəkkürü ancaq Ramiz Mehdiyevin çətirinin altında verilən vədlərə inanmaq və kimlərisə bu yolda fəda edərək özünü xarici "dayı"larına yaxşı göstərmək olub. Artıq çox ciddi maddə ilə AR Cinayət Məcəlləsinin 278.1-ci (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə şübhəli şəxs qismində tanınıb. Bu gün isə görünən odur ki, onun klaviatura şəbəkəsi də, deyəsən, ancaq maddi qarşılıq əsasında işləyib. Əli Kərimli pul qarşılığında iş görənləri ətrafına toplamaqla özünü bir şey hiss edib. Ancaq pul qarşılığında iş görməyə bizim xalq çox gözəl ad qoyub".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Anar: "Zərdabinin heykəli restoranın qapıçısı kimi görünür"

**"Heydər Əliyev sovet dövründə Azərbaycan Yazıçılar Birliyinin qurultayında Azərbaycan dilində danışırdı. Bu ilk dəfə idi. Çünki ona qədər qurultayda çıxış edən dövlət rəhbərlərinin hamısı rusca danışırdı".**

Teleqraf xəbər verir ki, bunu Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar Rzayev parlamentdə "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: Mövcud vəziyyət və perspektivlər" mövzusuna həsr edilən konfransda çıxışı zamanı deyib.

O bildirib ki, bu gün ölkəmizdə dilin qorunması ilə bağlı fikirlər səslənsə də, problemlər çoxdur: "Mən başa düşmürəm, niyə dükanların hamısı market adlanmalıdır? Dükan yazılsa, nə olacaq ki? Deyirlər ki, turistlərə görə belə yazıblar. Yəni turist elə kütdür ki, bilmir burada nə satılır? Ona görə də dil və ədəbiyyat mövzusuna çox həssas yanaşmalıyıq".

Anar Rzayev bildirib ki, dil və ədəbiyyatı hamı bilməlidir: "İçərişəhərdə ensiklopediyanın binasının önündə Həsən bəy Zərdabinin heykəli var. Sonradan oranın birinci mərtəbəsini restoran etdilər. İndi Həsən bəyin heykəli orada restoranın qapıçısı kimi görünür. Çox xahiş edirəm ki, o bütün yeri dəyişdirilərək Şəhriyar adına Mədəniyyət Evi (hazırda DTX Mədəniyyət Mərkəzi- red.) ilə üzbəüz Azərbaycan Dövlət Pedaqoji Universitetinin bağına köçürülsün".




# "Ok" sözünə görə telekanallara xəbərdarlıq ediləcək

**"Ölkə başçısının da qeyd etdiyi kimi, dilimizdə əcnəbi sözlərin çoxluğu ilə bağlı məsələlər mövcuddur".**

Teleqraf xəbər verir ki, bunu Audiovizual Şurasının sədri İsmət Səttarov parlamentdə "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: Mövcud vəziyyət və perspektivlər" mövzusuna həsr edilən konfransda çıxışı zamanı deyib.

O bildirib ki, bu gün əcnəbi sözlərin reklam çarxlarından çıxarılması ilə bağlı mühüm addımlar atılıb: "Bununla bağlı qanunvericiliyə uyğun işlər görülüb. Bu sahədə dilin normalarına ciddi riayət edilir. Amma televiziya verilişlərində bu vəziyyət o qədər də ürəkaçan deyil".

Şura sədri bildirib ki, televiziyalarda əcnəbi dillə bağlı monitorinqlər aparılır: "Süni intellekt proqramı sayəsində 40-a yaxın əcnəbi sözlərin monitorinqi aparılıb. Məsələn, "ok" sözündən gün ərzində telekanallarda aparıcılar kifayət qədər istifadə edir. Ona görə də biz bununla bağlı kanallara xəbərdarlıq göndərəcəyik. Bununla bağlı cərimələr da var. Biz mediamızı cərimələmək istəməsək də, bundan başqa çıxış yolu qalmır".

YENİ MÜSAVAT
N 223 (8833) 9 dekabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# “Mühafizəkar qanad Azərbaycana qarşıdır”

## Aydın Hüseynov: “İranla münasibətlərin düzəlməsi əməkdaşlığın canlanmasına təsirini göstərəcək”



**Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 8-də İranın xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Musavat.com xəbər verir ki, Azərbaycanla İran arasında əlaqələrin böyük tarixinin olduğunu deyən Prezident İlham Əliyev qeyd edib ki, xalqlarımızın əsrlər boyu bir yerdə yaşaması münasibətlərimizə xüsusi önəm verir.**

Son dövrlərdə əlaqələrimizin fəallaşmasından məmnunluğunu bildirən dövlət başçısı İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfərinin, həmçinin digər yüksəkvəzifəli şəxslərin qarşılıqlı səfərlərinin əməkdaşlığın daha da genişləndirilməsinə töhfə verdiyini vurğulayıb.

Prezident İlham Əliyev ikitərəfli gündəliyin geniş olduğunu və bir çox sahələri əhatə etdiyini deyərək, bütün məsələlər üzrə konkret yol xəritələrinin olduğunu bildirib.

Hökumətlərarası komissiyanın çox uğurla fəaliyyət göstərdiyini vurğulayan dövlət başçısı bu xüsusda iqtisadi, ticari, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığa toxunub.

Azərbaycan Prezidenti İran nümayəndə heyətinin səfərinin uğurlu və məhsuldar olacağına əminliyini ifadə edib.

Qəbula görə təşəkkürünü bildirən Seyid Abbas Əraqçi, ilk növbədə, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlət başçısına çatdırıb. O qeyd edib ki, İranın dövlət başçısının Prezident İlham Əliyevə və Azərbaycana böyük hörməti var. Qonaq Məsud Pezeşkianın İran prezidenti seçilməsindən sonra Azərbaycanla əlaqələri daha da inkişaf etdirməklə bağlı tapşırıq verdiyini deyib.

Seyid Abbas Əraqçi də öz növbəsində Azərbaycan-İran əlaqələrinin dərin köklərə malik olduğunu vurğulayaraq, münasibətlərimizin daha da dərinləşdirilməsinin əhəmiyyətinə toxunub.

İran XİN rəhbərinin Azərbaycana səfərinin əhəmiyyətini şərh edən **deputat Aydın Hüseynov** “Yeni Müsavat”a bildirdi ki, İran rəsmiləri səfərdən öncə “Azərbaycanla münasibətlər bizim üçün çox vacibdir” bəyanatını veriblər. Səfərdən öncə bu cür isti bəyanatların səslənməsi İranın Azərbaycanla münasibətləri yaxşılaşdırmaq istəyinin ifadəsi idi: “Tehrandakı səfirliyimiz terror hücumundan sonra iki ölkə arasında yaranmış soyuqluq, gərginlik artıq bir müddətdir aradan qaldırılır. Azərbaycan Prezidenti İlham Əliyevin nazir Abbas Əraqçini qəbul edərkən söylədiyi fikirlər, eləcə də nazirin dedikləri Azərbaycan-İran münasibətlərinin yeni dinamikaya keçidinin təsdiqidir. İranlı nazirin səfəri həmçinin regionda sülh və sabitlik məsələlərinə müsbət təsirini göstərəcək. Bu səfər həm də qarşılıqlı etimadın bərpasına, yanlış anlaşılmaların aradan qaldırılmasına yönəlik növbəti addım sayıla bilər. Bu, uzunmüddətli perspektivdə regionda həm siyasi, həm də təhlükəsizlik əməkdaşlığı üçün baza yarada bilər. Davamlı inkişaf üçün yalnız səfərin özü kifayət deyil-ardıcıl dialoq, konkret razılaşmaların imzalanması, humanitar və iqtisadi layihələrin icrası, İranın Zəngəzur dəhlizinin açılması münasibətinin müsbətə dəyişməsi vacibdir. İran hakimiyyətinin islahatçı hesab olunan qanadının təmsilçisi sayılan xarici işlər naziri Abbas Əraqçi Azərbaycanla münasibətləri yaxşılaşdırmağın tərəfdarı kimi çıxış edir. Ancaq mühafizəkar qanadın təmsilçiləri Azərbaycana qarşı sərt mövqedə qalır və bu qanadın təmsilçiləri az qala hər gün anti-Azərbaycan çıxışları edirlər. İstisna deyil ki, səfər çərçivəsində bu məqama da diqqət cəlb olunub.

Ümumilikdə, Abbas Əraqçinin Bakı səfəri hazırda İran-Azərbaycan münasibətlərinin yenidən qurulması və gücləndirilməsi üçün mühüm bir fürsət kimi görünür. Bu, münasibətlərin normallaşma meylini daha da möhkəmləndirəcək”.

**Deputat dedi ki, İranla Azərbaycan arasında siyasi münasibətlərin düzəlməsi şübhəsiz ki, iqtisadi sahədə, tranzit-kommunikasiya sahəsində əməkdaşlığın canlanmasına təsirini göstərəcək:** “İran üçün Azərbaycandan keçən kommunikasiya dəhlizləri yalnız regional inteqrasiya deyil, həm də iqtisadi və logistik gəlir mənbəyidir. Azərbaycana isə tranzit imkanları, ticarət və regional əlaqələr baxımından xüsusi fayda gətirə bilər. Bu baxımdan, səfər iki ölkə arasında iqtisadi əməkdaşlığın dərinləşməsi üçün də mühüm əhəmiyyətlidir.

İki ölkə arasında 2025-ci ildə ticarət dövriyyəsi artıb. Xüsusilə sərhəd-gömrük, tranzit-logistika və investisiya layihələrinin, yol, körpü, sərhəd-keçid məntəqələri və daha geniş tranzit koridorlarının sürətləndirilməsi gündəmdədir. Məsələn, Araz çayı üzərində inşa edilən Ağbənd avtomobil körpüsü, sərhəd infrastrukturu, gömrük prosedurlarının sadələşdirilməsi kimi məsələlər yəqin ki, müvafiq görüşlərdə müzakirə mövzusu olub. Hər iki ölkə üçün vacib olan nəqliyyat-logistika infrastruktur layihələri prioritet sayılır. Bu layihələr vasitəsilə tranzit, yük daşımaları, ticarət axınının artırılması həm regional, həm beynəlxalq səviyyədə həm İran, həm Azərbaycan üçün strateji əhəmiyyət daşıyır”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Emil SALAMOĞLU

# Bakıdan pul aldığı deyilən konqresmen əfv edildi - boşa çıxan hiylə

## ABŞ-Azərbaycan münasibətlərini pozmaq istəyənlər dayanmır



Henri Kuelları

**ABŞ Prezidenti Donald Tramp rüşvətxorluq və çirkli pulların yuyulması ittihamı ilə üzləşən texaslı Demokrat konqresmen Henri Kuelları və həyat yoldaşı İmeldanı tam və qeyd-şərtsiz əfv etdiyini açıqlayıb. Tramp bununla Demokratlar Partiyasını siyasi rəqiblərə qarşı əsassız hücumlarda ittiham edib və Kuellara “kabus bitdi” mesajını verib.**

Kuellar əfv üçün təşəkkür edərək bunun ona “təmiz səhifə” açdığını bildirib və işlə bağlı mübarizəni davam etdirəcəyini qeyd edib. Onun qızları da Trampa məktub yazaraq ailələrinin çəkdiyi çətinliklərdən bəhs ediblər. Bu barədə “Bakı-Xəbər” yazıb.

Ədliyyə Departamenti Kuellar və həyat yoldaşını Azərbaycanın dövlət energetika şirkəti və Meksika bankından təxminən 600 min dollar rüşvət almaqda ittiham edirdi. Onlar 14 maddə üzrə təqsirləndirilmişdilər. Lakin məhkəmə FARA ilə bağlı iki ittihamı sonradan ləğv etmişdi.

Henri Kuelların işi ətrafında yaranmış ittihamların böyük hissəsi mediada və siyasi çevrələrdə “xarici təsir” narrativi ilə qabardılmışdı. Xüsusilə Azərbaycanın adı ön plana çəkilmişdi. Halbuki mövcud faktları daha dərindən təhlil edəndə görünür ki, məsələ həm hüquqi, həm siyasi, həm də geosiyasi çalarlar daşıyır və Azərbaycanla əlaqənin ittihamda bu qədər şişirdilməsi özü-özlüyündə müdafiə arqumentinə çevrilə bilər.

Azərbaycan uzun illərdir ki, ABŞ şirkətləri, konqresmenləri, senatorları, siyasətçiləri və analitik mərkəzləri ilə enerji, təhlükəsizlik, Xəzəryanı siyasət, nəqliyyat koridorları və regional sabitlik mövzularında normal institusional əməkdaşlıq həyata keçirir. Üçüncüsü, Azərbaycanla bağlı istənilən mövzunun ABŞ-də müəyyən siyasi qruplar tərəfindən həssas və manipulyativ şəkildə istifadəsi yeni deyil. Ermənistan lobbi qrupları uzun illərdir Azərbaycanla əlaqəsi olan siyasətçiləri hədəfə alan kampaniyalar aparır, müxtəlif media və siyasi platformalarda bu əlaqələri kriminal və ya qeyri-etik kimi göstərməyə çalışır. Kuellara qarşı ittihamların detallarında Azərbaycanın rolunun bu qədər qabardılması, - halbuki sənədlərdə iddia edilən fəaliyyətlərin böyük qismi, ümumiyyətlə, lobbiçilik və ya məsləhətçilik çərçivəsindən kənara çıxmır, - bu siyasi təzyiq faktorunu gücləndirir.

Qeyd edək ki, az əvvəl də Tramp Azərbaycan, həmçinin Ermənistan liderinə onun Nobel Sülh mükafatına namizədliyini irəli sürdüklərinə görə təşəkkür edib. İndi də Bayden dövründə Azərbaycana qarşı hazırlanmış “rüşvət işi”ni tarixin zibilliyinə göndərdi.

Bakı-Vaşinqton münasibətlərinin intibah dövrü postTramp dövründə pozula bilərmi? Azərbaycan bu əlaqələri yüksələn xətt üzrə inkişaf etdirmək üçün hansı addımları atmalıdır?

**Siyasi şərhçi Azər Həsrət** “Yeni Müsavat”a bildirdi ki, hazırda ABŞ ilə Azərbaycanın münasibətləri özünün yaxşı dövrünü yaşayır. Bu istiqamətdə fəaliyyətlərimiz intensiv şəkildə davam etdirilməlidir: “Yəni hətta Donald Trampın özünün hakimiyyətdə olduğu dövrdə belə risklər yox deyil. Təbiidir ki, ABŞ-də bizə qarşı olanlar boş durmurlar, davamlı şəkildə addımlar atmağa çalışırlar. Amma həqiqətən də Donald Trampın prezidentliyi müddəti başa çatdıqdan sonra anti-Azərbaycan qüvvələr daha da aktivləşə bilər, yaxud da ki, yeni seçiləcək prezidentin kimliyindən asılı olaraq Azərbaycana qarşı bir durum yarana bilər. Ona görə də indidən nə etməliyik? Biz münasibətlərin daha da irəli aparılması üçün özümüzü hazırlıqlı olmalıyıq. Burada bizim xarici işlər sistemimiz davamlı iş aparmalıdır, yeni gələcəyə hesablanmış iş sistemli həyata keçirilməlidir. Bununla yanaşı, Azərbaycan parlamenti elə formalaşdırılmalıdır ki, ABŞ Konqresində, istər Nümayəndələr Palatası, istərsə də Senatında iş aparacaq yüksək qabiliyyəti olan deputatlarımız olsun. Bizim deputatlarımız o səviyyədə olmalıdırlar ki, onlar davamlı şəkildə amerikalı həmkarları ilə işləyə bilsinlər”.

**Siyasi şərhçi hesab edir ki, əlavə olaraq da Azərbaycan ABŞ-nin ölkəmiz və bölgəmizdə maraqları baxımından daha da lazımlılığını təmin və davamlı etməlidir:** “Yəni biz elə etməliyik ki, ABŞ ehtiyac duysun. Xatırlayırsınızsa, Əfqanıstan hərəkatı zamanı Azərbaycan antiterror koalisiyasında yer almışdı, həmin illərdə Azərbaycana ABŞ-nin çox ciddi ehtiyacı yarandığı üçün bizim üzərimizə gəlməyi dayandırmışdılar. Artıq bir maraq Vaşinqtonun bizə sərt münasibətini səngitmişdi, üstəlik də “907-ci düzəliş”in fəaliyyəti müvəqqəti dayandırılmışdı. Çünki o dövrdə Amerikaya biz lazım idik. Bax bundan sonrakı mərhələdə də ABŞ-yə lazımlılığımızı qorumalıyıq. Ümumiyyətlə, beynəlxalq münasibətlər sistemində başqa dövlətlərə də qarşılıqlı şəkildə lazımlılığı qorumaq üçün tədbirlər görülməsi təbidir. Bu gün Tramp var və münasibətlər yaxşıdır, sabah nə olar-olar deyə düşünməməliyik. Təbiidir ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemini, diplomatiyanı mükəmməl və dərindən bilən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət bizi gələcəkdə mümkün risklərdən qoruyur və qoruyacaq”.

❑ **Etibar SEYİDAĞA,
Musavat.com**

Yeni MÜSAVAT
N 223 (8833) 9 dekabr 2025

# Erməni kilsəsi Paşinyana qarşı “son döyüş”ə start verdi

## Mübarizə Ermənistanın sərhədlərini aşdı - II Qareginin köməyinə I Aram gəldi; baş nazirə qarşı koalisiya yaradılır

**Ermənistanın baş naziri Nikol Paşinyanla Erməni Apostol Kilsəsi arasındakı gərginlik ən yüksək həddə çatıb. Paşinyan Ktriç Nersisyanın - İkinci Qareginin hakimiyyətdən uzaqlaşdırılmasından sonra Erməni Apostol Kilsəsinin “bərpası-na” dair yol xəritəsini də hazırlayıb.**

“Yeni Müsavat”ın məlumatına görə, baş nazir bu barədə Facebook-dakı şəxsi səhifəsində yazıb. O qeyd edib ki, Erməni Apostol Kilsəsinin mexanizmlərinin məntiqinə uyğun olaraq, Qaydalar Məcəlləsinin qəbulu zəruridir. Məcəllədə isə Erməni Apostol Kilsəsinin ruhaniləri üçün dürüstlük qaydaları və onların təmin edilməsi üçün təminatlar, kilsənin maliyyə şəffaflığı və onun maliyyələşdirilməsi, siyasətdən kənar olması zərurəti, onun maliyyələşdirilməsinə zəmanət, fəaliyyətinin Ermənistanın vergi qanunvericiliyinə uyğunluğu əksini tapacaq. Yekunda isə yeni məcəlləyə uyğun olaraq Bütün Ermənilərin Katolikosunun seçkiləri nəzərdə tutulur.

Ermənistan daxilində uzun müddətdir davam edən Paşinyan-kilsə qarşıdurması artıq ölkə sərhədlərini aşaraq diaspor mərkəzlərinə də sıçrayıb. Musavat.com xəbər verir ki, bu dəfə proses Livanda yerləşən Böyük Kilikiya Evinin Katolikosluğunu özünə cəlb edib. Anteliasdakı erməni dini rəhbərliyi sayılan Katolikos Aram I son çıxışı ilə Paşinyan hakimiyyətinə açıq şəkildə meydan oxuyub və kilsənin mövqeyini daha sərt tonla bəyan edib. Liturgiya mərasimindən sonra səslən-dirdiyi “Ermənistanda ədalətsizlik olanda Antelias "yox" deyir və deməyə davam edəcək” sözləri qarşıdurmanın yeni mərhələyə keçdiyini nümayiş etdirib. Aram I son aylarda aktiv şəkildə xarici səfərlərdə iştirak edir və hər platformada Qarabağda dağıdılmış separatçı rejimin tanıdılması məsələsini yenidən gündəmə gətirməyə cəhd göstərir. Xüsusilə Kanada səfəri zamanı qondarma “Artsax”ın tanıdılması ideyasının rəsmi səviyyəyə daşınması Paşinyan xəttinin əksinə bir istiqamət kimi dəyərləndirilir. Ermənistan hökumətinin postmüharibə dövründə Qarabağ mövzusunu bağlamağa çalışdığı bir vaxtda kilsənin bu istiqamətdə aktivləşməsi daxili ideoloji parçalanmanı daha da dərinləşdirir. Paşinyan hakimiyyəti artıq bir müddətdir kilsənin siyasi təsirini məhdudlaşdırmağa, “kilsə zəncirini qırmağa” yönəlmiş kurs aparır. Bu prosesdə bir sıra rütbəli ruhanilərin saxlanılması, din xadimlərinə qarşı cinayət işlərinin açılması və məhkəmə prosesləri kilsə daxilində ciddi narazılıq yaradıb. Kilsə isə son hadisələri “erməni kimliyinə və tarixi-mənəvi dayaqlara hücum” kimi təqdim edir, həm daxildə, həm də diasporada müqaviməti təşkilatlandırmağa çalışır. Müşahidəçilərə görə, qarşıdurma təkcə dini mühitlə dövlət arasındakı fikir ayrılığı deyil, həm də Ermənistanın gələcək siyasi-orientasiya modelinə dair kəskin çarpışmadır. Bu mübarizədə Rusiya faktoru da xüsusi qeyd olunur. Kreml kilsə institutundan istifadə edərək Paşinyan hakimiyyətinə təzyiq etməyə, onun qərbyönlü kursunu zəiflətməyə çalışır. Kilsə isə Moskvanın bu dəstəyini daxili müqaviməti genişləndirmək üçün rıçaq kimi istifadə edir. Beləliklə, Paşinyan-kilsə qarşıdurması artıq Ermənistanın daxilində qapalı proses olmaqdan çıxıb və Livan, Kanada, Rusiya kimi diaspora mərkəzlərinə də daşınaraq genişlənən siyasi-sosial mübarizəyə çevrilib. Tərəflərin geri addım atmaq niyyətində olmadığı görünür. Proses kəskinləşmə xətti üzrə davam edir və gələcəkdə daha sərt fazaya keçəcəyi ehtimal olunur. Bu isə Ermənistan üçün yeni daxili gərginlik dalğasının qaçılmaz olacağını göstərir.



Yazı çapa hazırlanarkən məlum oldu ki, Livanda yerləşən Böyük Kilikiya Evinin katolikosu I Aram isə növbəti dəfə bəyanat verərək Ermənistan hakimiyyətini Erməni Apostol Kilsəsinin işlərinə qarışmamağa çağırıb. Patriarxın bəyanatında deyilir ki, Erməni Apostol Kilsəsinin xarici və daxili təhlükələrdən qorunması milli prioritetdir. Ultimatum xarakterli bəyanatda bildirilir ki, Ermənistan rəhbərliyi kilsənin, millətin və vətənin məhvinə səbəb ola biləcək konstitusiyaya zidd addımlardan əl çəkməlidir. I Aram həmçinin Eçmiədzinin Ana Taxtına müraciət edərək bütün ermənilərin katolikosu II Qareginin ətrafında birləşməyi və kilsənin əhd və prinsiplərinə sadiq qalmağı xahiş edib.

Bundan əvvəl ki, Erməni Apostol Kilsəsinin arxiyepiskopları və yepiskopları, Eçmiədzinin Ana Taxtına və bütün ermənilərin katolikosu II Qareginə qeyd-şərtsiz övlad sədaqətini bildirdikləri barədə bəyanat yaymışdılar. 27 yepiskop və arxiyepiskopun yaydığı bəyanatda “Biz kilsədaxili məsələləri siyasi müdaxilə yolu ilə həll etmək cəhdini qəbuledilməz və təhlükəli hesab edirik”, - deyə bildirilirdi.

Qeyd edək ki, bundan əvvəl N.Paşinyan “Erməni Kilsəsinə Ktriç Nersisyanın (II Qaregin) mövcudluğundan daha böyük zərər verən heç nə yoxdur” demişdi. Ardınca isə İrəvan Şəhər Cinayət İşləri üzrə Ümumi Yurisdiksiya Məhkəməsi hakim Masis Melkonyanın sədrliyi ilə arxiyepiskop Arşak Xaçatryan barəsində 2 aylıq həbs-qətimkan tədbiri seçilməsinə qərar verdi. Daha əvvəl arxiyepiskoplar Baqrat Qalstanyan və Mikael Ajapayan həbs edilmişdi. Üstəlik, Paşinyan parlament tribunasından katolikosu “agent fəaliyyəti”ndə də ittiham edib.

Ötən həftə Marseldən qayıdan bütün ermənilərin katolikosu II Qareginin İrəvanın Zvartnots hava limanında həbs ediləcəyindən narahat olan tərəfdarları onu qarşılamağa çıxmışdılar. Lakin görünür, Paşinyan hələ həbs qərarını qəbul etməyi təhlükəli sayır.

Bu arada, Paşinyan deyib ki, kilsələrdə istər girişdə, istərsə də içəridə erməni dövlət bayrağının olması məsələsi də müzakirə mövzusu olmalıdır. Daha əvvəl o, bütün kilsələrdə xor kollektivlərinin Ermənistan Respublikasının dövlət himnini oxumasını məqsədəuyğun saymışdı. Bu təşəbbüslər isə kilsə tərəfindən “top-tüfəng”lə qarşılanır. Görünən budur ki, seçkilərədək savaş daha da şiddətlənə bilər. Proseslərə Aramın da qoşulması, üstəlik, diaspora və kilsənin ayağa qalxması, revanşistlərin də hərəkətlənməsi Paşinyan üçün dumanlı vəziyyət yaradır. Beləliklə, erməni kilsəsi Paşinyana qarşı “son döyüş”ə start verib, erməni baş nazirə qarşı de-fakto koalisiya qurulur. Proseslər nə ilə bitəcək?

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi Tural İsmayılov “Yeni Müsavat”a bildirdi ki, Ermənistanda kilsə ilə hökumət arasında gərginlik uzun illərdir mövcuddur və indi daha da dərinləşib:** “Paşinyan hakimiyyəti kilsənin siyasi təsirini məhdudlaşdırmaq üçün addımlar atır. Bu addımlar ruhanilərin saxlanılması və məhkəmə prosesləri ilə müşayiət olunur. Kilsə isə bunu milli kimliyə hücum kimi təqdim edir. Katolikos Aram I son çıxışında Paşinyan hakimiyyətinə açıq meydan oxudu. Onun "ədalətsizlik olanda xalq “yox” deyir" sözləri qarşıdurmanın yeni fazaya keçdiyini göstərdi. Bu bəyanat kilsənin mövqeyini daha sərt tonla ortaya qoydu. Ermənistan daxilində ideoloji parçalanma daha da dərinləşdi". **T.İsmayılov qeyd etdi ki, Kilsə Qarabağ məsələsini yenidən gündəmə gətirməyə çalışır:** “Bu, hökumətin postmüharibə dövründə mövzunu bağlamaq siyasətinə ziddir. Kanada səfəri zamanı qondarma "Artsax"ın tanıdılması ideyasının gündəmə gətirilməsi Paşinyan xəttinə qarşı bir addım oldu. Diaspor mərkəzlərində kilsənin fəallaşması mübarizəni beynəlxalq müstəviyə daşıdı". **Ekspertin sözlərinə görə, Paşinyan hökuməti modernləşmə və qərbyönlü siyasəti önə çəkir:** “Kilsə isə "tarixi" və “dini” dayaqları müdafiə edir. Bu ziddiyyət Ermənistanın gələcək siyasi modelini müəyyənləşdirəcək. Mübarizə kompromissiz davam edir".

**STM əməkdaşı şimal faktoruna da diqqət çəkdi:** “Rusiya faktoru qarşıdurmanı daha mürəkkəb edir. Kreml kilsədən istifadə edərək Paşinyana təzyiq göstərməyə çalışır. Kilsə Moskvanın dəstəyini daxili müqaviməti gücləndirmək üçün rıçaq kimi görür. Bu, Ermənistanın siyasi orientasiyasını müəyyənləşdirəcək əsas mübarizələrdən biridir. Paşinyan təkcə Qareginlə deyil, bütövlükdə kilsə institutları ilə qarşı-qarşıya qalır. Kilsənin revanşist ritorikası cəmiyyətin bir hissəsində hələ də güclü təsirə malikdir. Bu isə hökumətin modernləşmə siyasətini çətinləşdirir. Qarşıdurmanın sərtləşməsi yeni daxili gərginlik dalğası yarada bilər. Kilsə özünü milli kimliyin qoruyucusu kimi təqdim edir. Hökumət isə sekulyar dövlətçilik xəttini gücləndirməyə çalışır. Bu ideoloji ziddiyyət kompromissizdir. Ermənistanın siyasi sabitliyi bu mübarizədən ciddi təsirlənə bilər”.

**❑ E.PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 223 (8833) 9 dekabr 2025

# Trampın səbri daşır: Ukrayna üçün son həmlə



**"Rusiya Prezidenti Vladimir Putin Ukraynanı ikinci Belarusa çevirməyənə qədər onunla sülh sazişi imzalamaq niyyətində deyil. Kreml üçün ərazi məsələləri əslində o qədər də maraqlı deyil".**

Bunu "Blumberq"ə müsahibəsində Böyük Britaniyanın MI6 gizli kəşfiyyat xidmətinin keçmiş direktoru Riçard Mur bildirib (Axar.az).

"Böyük Britaniyada biz bu müharibənin aparılması və ukraynalılara necə dəstək olmağımız barədə çox aydın baxışlara malikik. Bizim məsuliyyətimiz ondan ibarətdir ki, kəşfiyyatın dediklərini dəqiq şəkildə çatdıraq. Kəşfiyyat isə bizə, məsələn, bildirir ki, Putin heç bir razılaşma bağlamaq niyyətində deyil, çünki onun üçün bu, təkcə ərazi məsələsi deyil, əsas olan Ukraynanı onun qonşusu Belarus kimi bir dövlətə çevirmək və ona hökmranlıq etməkdir", - deyə o söyləyib.

Murun fikrincə, Ukraynada sülhə nail olmağın yeganə yolu Rusiyaya daha böyük təzyiq göstərməkdir ki, Putini sülh danışıqlarına məcbur etsin.

Bu arada "Axios" özünün məlumatlı mənbələrinə istinadən xəbər verib ki, ABŞ prezidentinin danışıqlar qrupu Kiyev və Moskvadan sülh müqaviləsi üçün zəruri olan güzəştləri əldə edə bilib. "Ukrayna Prezidenti Volodimir Zelenski ABŞ prezidentinin müşavirləri Stiv Uitkoff və Cared Kuşnerlə iki saatlıq söhbət aparıb. Onlar digər məsələlərlə yanaşı, ərazi məsələləri və müharibədən sonrakı təhlükəsizlik zəmanətlərini də müzakirə edibl ər", - məlumatda vurğulanır.

Nəşrə görə, "Vəziyyətlə tanış olan mənbə bildirib ki, Uitkoff və Kuşner hər iki tərəfdən məlumat toplayıb və Putin və Zelenskiyə razılığa gəlmək üçün lazım olan güzəştləri etməyə təzyiq göstəriblər". Bildirilir ki, ərazi müzakirələri mürəkkəb olub, lakin ABŞ həll yolu üçün "yeni ideyalar" hazırlamağa çalışır.

Mənbələr həmçinin iddia edir ki, ABŞ tərəfindən Ukrayna üçün müharibədən sonrakı təhlükəsizlik zəmanətləri ilə bağlı əhəmiyyətli irəliləyişlər əldə olunub, lakin bu zəmanətləri tərəflərin fərqli şərh etməsinin qarşısını almaq üçün daha çox iş görülməlidir. Ukrayna rəsmisi "Axios"a bildirib ki, "Bütün layihələri götürüb beyin fırtınası etməliyik".

Bu həftənin sonlarında Uitkoff və Kuşnerlə əlavə danışıqlar və görüşlər gözlənilir.

Bəs nəticə nə olacaq?

**Siyasi şərhçi Heydər Oğuz** "Yeni Müsavat"a bildirib ki, Ukrayna məsələsində ABŞ ilə Avropa İttifaqı ölkələrinin, həmçinin rəsmi Kiyevin ortaq məxrəcə gəlməsi mümkün deyil: "Açıq görünür ki, ABŞ hökuməti öz ənənəvi siyasətindən geri çəkilmək, regional problemlərin həllini bölgə dövlətlərinin öz ixtiyarına buraxmaq əzmindədir. Özü isə əsasən Amerika qitəsinə və Sakit-Hind okeanı coğrafiyasına yönəlmək xətti tutub. Bir növ dünya hegemoniyası imkanından imtina edib, daxili problemləri ilə məşğul olmaq, dolayısıyla təkqütblü dünya düzəni sistemini başqa güc mərkəzləri ilə bölüşmək planı ABŞ-nin bu yaxınlarda qəbul etdiyi "Milli Təhlükəsizlik Strategiyası-2025" adlı doktrinada da öz əksini tapıb. Yeni təhlükəsizlik strategiyasında açıq şəkildə "Monro Doktrinası"na qayıdışdan bəhs olunur və Tramp hökumətinin yürütdüyü siyasət də bu doktrinanın bir yansıması kimi təqdim edilərək bildirilir: "Başqa sözlə, biz Monro Doktrinasına "Trampın Nəticəsi"ni irəli sürəcək və tətbiq edəcəyik".

Bəs Monro Doktrinası nədir və Trampın bundan sonrakı siyasəti hansı xüsusiyyətləri ilə seçiləcək?

Monro Doktrinasını qısa şəkildə belə ifadə etmək olar. Adını ABŞ-nin 5-ci prezidenti Ceyms Monrodan alan bu doktrina Amerikanın 19-cu əsrin əvvəllərində xarici siyasətini əks etdirən sənəddir. Təcrid siyasəti kimi də tanınan bu doktrina Amerikanın heç bir şəkildə Avropanın daxili işlərinə qarışmayacağını, lakin Avropanın da eyni şəkildə Amerikanın daxili işlərinə müdaxilə etməməsini tələb edir. Məhz bu səbəbdən də təcrid doktrinası kimi tanınır. Həqiqətən də Monro doktrinası ilə Trampın bugünkü siyasətini qarşılaşdırdığımız zaman hətta devizlərinin də bir-birinə çox bənzədiyini görə bilərik. Monro doktrinasının əsas devizi "Amerika amerikalılarındır" idi. Trampın hakimiyyətə gələrkən irəli sürdüyü deviz isə "Öncə Amerika" kimi təqdim olunurdu.

Təbii ki, bənzərlik təkcə devizlərdə deyildi. ABŞ-nin yeni strateji doktrinası möhtəvisi baxımından da Monronun tezisləri ilə eyniyyət təşkil edir. "Milli Təhlükəsizlik Strategiyası-2025"in tezislərinə görə, ABŞ Yaxın Şərq, Avrasiya, o cümlədən Avropadakı proseslərdən geri çəkilməli, sadəcə, bu regionların kritik strateji əhəmiyyət daşıyan nöqtələrinin digər güclü rəqiblərin əlinə keçməsinin qarşısını almaqla kifayətlənməlidir. Əks halda, ABŞ-nin indiki gücü rəqiblərinin əlinə keçə bilər. Bunun üçün isə regional güc mərkəzləri ilə əməkdaşlıqdan belə çəkinilməməlidir.

Strateji sənəddə konkret ad çəkilməsə də, "rəqib" deyiləndə Çinin, regional güc mərkəzləri deyiləndə isə Rusiyanın, Böyük Britaniyanın, Türkiyənin nəzərdə tutulduğu aydın sezilir. Doktrinanın bu məntiqindən çıxış etsək, Trampın niyə Rusiya ilə yaxın münasibətlər qurmasının əsl səbəbini anlaya bilərik. Görünən budur ki, ABŞ özü üçün əsl təhlükənin Sakit-Hind okeanından gəldiyini hiss etdiyindən Avropa qitəsini NATO müttəfiqlərinin ixtiyarına buraxmaq və özü daha çox Sakit-Hind okeanına yönəlməyi planlaşdırır. Dünyanın 2-ci ən böyük sənaye ölkəsi olan və getdikcə ABŞ-ni haqlamaq əzmi göstərən Çin Sakit-Hind okeanında yerləşdiyini göz önündə bulundursaq, ABŞ-nin siyasi kurs dəyişikliyinə getməsinə haqq qazandırmaq mümkündür".

Heydər Oğuzun iddialarına görə, ABŞ-ın siyasi kurs dəyişikliyinə getdiyi yeganə sahə Avropa da deyil: "Biz eyni şəkildə Yaxın Şərq sahəsində, Mərkəzi Asiya və Cənubi Qafqazda da bənzər siyasət dəyişikliklərinin şahidi oluruq. Xüsusilə də Yaxın Şərq məsələsi ABŞ-nin asanlıqla vaz keçəcəyi bölgələrdən deyil. Yaxın Şərqin təbii sərvətləri, özəlliklə də neft və qazı bu regiona nəzarət edən istənilən ölkəni gücləndirə və dünya hegemoniyasının aparıcı fiqurına çevirə bilər. Ona görə də ABŞ bölgələrdən çəkilsə də, Yaxın Şərqi, həmçinin digər kritik strateji əhəmiyyətə malik olan nöqtələri "düşmənlərin" öhdəsinə buraxmaq istəmir. Haqqında bəhs etdiyimiz strateji doktrinada deyilir: "Biz düşmən qüvvənin Yaxın Şərqə, onun neft və qaz təchizatına və keçdiyi tıxaclara hakim olmasının qarşısını almaq istəyirik, eyni zamanda bu regionda bizə çox baha başa gələn "əbədi müharibələr"dən qaçınmaq istəyirik".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**Ötən həftə Türkiyənin İzmir şəhərində "Doğu Akdeniz - 2025" (Şərqi Aralıq dənizi - 2025) dəvət təlimi keçirilib. Müdafiə Nazirliyi bildirir ki, təlimdə qardaş ölkənin hərbi qulluqçuları ilə yanaşı, Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin bir qrup heyəti, ABŞ-nin terrorizmə qarşı təhlükəsizlik qrupu və Pakistan ordusunun dəniz patrul təyyarəsi iştirak edib.**

# Azərbaycan üç super ordu ilə təlimdə - İrəvan yenə təlaşlandı

## Hərbçilərimizin Türkiyə, Pakistan və ABŞ əsgərləri ilə birgə toplanışı Ermənistanı niyə narahat edir? - ekspert rəyi

Təlimdə qarşıya qoyulan tapşırıqların icrası zamanı iştirakçı ölkələrin hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdiriblər. Qeyd edək ki, dəvət təliminə on doqquz ölkədən hərbi qulluqçular da müşahidəçi qismində qatılıb. Bu da Ermənistanda ciddi təlaşa səbəb olub.



**Armenianreport.com yazıb ki, davam edən regional gərginlik şəraitində hərbi potensialın artırılması ilə bağlı istənilən addımlar daha dərin təhlil tələb edir:** "Bu, xüsusilə hazırda Azərbaycanla, nəhayət, sülhün bərqərar olacağına inanmağa çağırılan Ermənistana aiddir. Azərbaycan öz xarici siyasət sütunlarını uzun müddət və ardıcıl olaraq möhkəmləndirib. Türkiyə təkcə hərbi sahədə deyil, həm də siyasi və diplomatik sahədə onun üçün əsas strateji tərəfdaşa çevrilib. Birləşmiş Ştatlar NATO daxilində mövcud ziddiyyətlərə və Ankara ilə münasibətlərdə mürəkkəb gündəmə baxmayaraq, regionda tanış təsir aləti olan Türkiyə və Azərbaycanla hərbi dialoqu davam etdirir. Pakistan ordusunun iştirakı da təəccüblü deyil. İslamabad Qarabağ məsələsində açıq şəkildə Bakıya dəstək verib. Başqa sözlə, biz Azərbaycanın ətrafında, mahiyyət etibarilə, Qarabağ münaqişəsinin hərbi yolla həllində iştirak etmiş geniş hərbi-siyasi blokun formalaşdığını və möhkəmlənməkdə davam etdiyini bir daha görürük. Bu gün Bakı Cənubi Qafqaz regionundan kənarda təlimlər keçirir, hərbi əməkdaşlığın coğrafiyasını genişləndirir, Yaxın Şərq, Cənubi Asiya və Mərkəzi Asiya dövlətləri ilə kommunikasiyalar qurur. Bu, inamın və gücün nümayişidir", - erməni mediası həyəcanla yazır.

Ardınca portal Bakını sülhə qarşı olmaqda ittiham edib: "Azərbaycanın müttəfiqlərinin davamlı manevrləri, silah nümayişi, hərbi dəniz qüvvələrinin gücləndirilməsi ilə müşayiət olunan bu sülh necə sülhdür? "Doğu Akdeniz-2025" təlimləri daha geniş bir prosesdə yalnız bir epizoddur. Bakının ritorikası getdikcə sərtləşir. Azərbaycan rəsmiləri regionda Ermənistanın Azərbaycanın diktə etdiyi şərtlərə əməl etməli olduğu "yeni reallıqları" çəkinmədən təsvir edir. Əgər sülh məcburiyyət üzərində qurulubsa, bu, sülh deyil, sadəcə olaraq, bir tərəfin növbəti təzyiq raundunda öz mövqeyini gücləndirdiyi bir möhlətdir".

Azərbaycan NATO-da ən güclü orduları olan iki ölkə - ABŞ və Türkiyə, həmçinin nüvə silahına malik Pakistanla birgə hərbi təlimlərdə iştirak etməklə hərbi eskalasiyaya hazırlıq mesajı verirmi? Ermənilər nə üçün təlaşa düşüblər?

**Hərbi ekspert Ramil Məmmədli** "Yeni Müsavat"a deyib ki, Türkiyənin İzmir şəhərində keçirilən "Doğu Akdeniz-2025" beynəlxalq dəvət təlimi əslində region üçün tamamilə gözlənilən, lakin Ermənistan üçün bir o qədər də xoş olmayan yeni reallığın təsdiqidir: "Təlimdə ABŞ, Türkiyə və Pakistan kimi hərbi güclərin iştirakı ilə yanaşı, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin aktiv iştirak etməsi Bakının artıq təkcə Cənubi Qafqazda deyil, daha geniş geosiyasi məkanlarda hərbi-siyasi mövcudluğunu gücləndirdiyini göstərir.

Bu, hərbi eskalasiya mesajı deyil, Azərbaycanın modern ordu konsepsiyasının davamıdır. Ankara ilə hərbi sinxronizasiya təkcə qardaşlıq münasibətlərinin yox, həm də NATO standartlarının sürətli tətbiqinin göstəricisidir. ABŞ-nin bu prosesdə iştirakı isə Vaşinqtonun bölgədəki yeni balans axtarışının bir hissəsidir. Pakistanın qatılması tamamilə qanunauyğundur. İslamabad Qarabağ müharibəsi boyunca Bakı ilə açıq siyasi və hərbi həmrəylik nümayiş etdirib".

**Hərbi ekspert deyib ki, burada diqqətçəkən məqam odur ki, Azərbaycan bu təlimdə iştirak etməklə özünü təkcə regional oyunçu kimi yox, regional güc və beynəlxalq təhlükəsizlik mexanizmlərinin iştirakçısı kimi təsdiq edir:** "Bu, Ermənistanı və digər qonşuları təlaşlandıran əsas amildir. Erməni mediasının həyəcanlı çıxışının səbəbi çox sadədir.

Azərbaycanın hərbi-siyasi bloklaşması Ermənistanın bəslədiyi təcrid edilmiş Azərbaycan narrativini tamamilə dağıdır.

"Armenianreport"un iddialarına diqqət yetirsək, onlar özləri etiraf edirlər ki, Bakı artıq tək regionda deyil, Yaxın Şərqdən Asiyaya qədər uzanan geniş əməkdaşlıq xəttinə malikdir. Bu, Ermənistan diplomatiyasının heç vaxt sahib olmadığı ölçüdə təsir dairəsidir".

**Hərbi ekspert bildirib ki, Ermənistanın Azərbaycanın sülhə qarşı olması ittihamı isə məntiqsizdir:** "Çünki sülhün əsas şərti qarşı tərəfin təhdid yaratmamasıdır. Ermənistan hələ də konstitusiyasında Azərbaycan torpaqlarına iddia saxladığı halda Bakıdan yalnız diplomatik davranış gözləməsi absurddur.

Azərbaycan hərbi gücünü sülhə təhdid kimi yox, təhlükəsizliyinin təminatı kimi görür. Hərbi təlimlər beynəlxalq hüquqa uyğun əməkdaşlıq formatıdır və Ermənistanın bunu "təzyiq" kimi təqdim etməsi öz daxili ictimaiyyətinə mesaj verməkdən başqa bir şey deyil. Reallıq budur ki, Azərbaycan bu gün hərbi manevrləri ilə heç kimi qorxutmaq niyyətində deyil. Lakin Ermənistan anlamalıdır ki, Cənubi Qafqazda təhlükəsizliyin yeni arxitekturası məhz Bakının müəyyən etdiyi parametrlər üzərində qurulub və qurulmağa davam edir. ABŞ NATO lideri, Türkiyə regionun ən böyük orduya malik dövləti, Pakistan isə nüvə gücüdür.

Bu 3 ordunun Azərbaycanla yanaşı hərbi təlimdə iştirakı, istər-istəməz Ermənistana və ona havadarlıq həvəsində olanlara çox aydın siqnal verir. Yeni reallıq dəyişməzdir. Bu reallığa uyğunlaşmaq Ermənistanın öz marağındadır.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**“Axios” nəşri ABŞ Prezidenti Donald Trampın dekabrın 25-dək Qəzzada sülh planının ikinci mərhələsinin başlayacağını elan etməyi planlaşdırdığını bildirib. ABŞ Prezidenti Donald Trampın Qəzza ilə bağlı sülh planı çərçivəsində Vaşinqton Azərbaycan, İndoneziya, BƏƏ, Misir, Qətər və Türkiyə ilə təxminən 20 min hərbçidən ibarət Beynəlxalq Sabitləşdirmə Qüvvələrində iştirak məsələsini müzakirə edir.**

# Sülhməramlılar Qəzzaya getmir, amma...

## Rəsmi Bakı hərbçilərimizin Yaxın Şərqə göndərilməsi ilə bağlı ilk dəfə açıqlama yaydı: “Yekun qərar yoxdur”



“Azərbaycan Qəzza ilə bağlı yaranmış mürəkkəb geosiyasi vəziyyət fonunda öz mövqeyində ehtiyatlı və balanslı qalır”.

Bu barədə “Reuters” Azərbaycan Xarici İşlər Nazirliyindəki mənbəyə istinadən məlumat yayıb. “Biz öz əsgərlərimizi təhlükəyə atmaq istəmirik. Bu, yalnız hərbi əməliyyatlar tam dayandıqdan sonra mümkün ola bilər”, - deyə XİN-dəki mənbə bildirib.

Qanunvericiliyə görə, Prezident sülhyaratma missiyasını hər hansı ölkəyə göndərməzdən əvvəl qərarın təsdiqini Milli Məclisə göndərir. Bu qərar Milli Məclisdə təsdiq edildikdən sonra qüvvəyə minir. Eləcə də missiyanın geri çağırılması və ya qalma müddətinin uzadılmasına da Milli Məclisin razılığı mütləqdir.

Qərb və İsrail mənbələri son günlər məlumat yayıb ki, Bakı təhlükəsizlik risklərini nəzərə alaraq bu planın həyata keçirilməsində birbaşa kontingentlə iştirak etməyə tərəddüd edir və hələlik qəti qərar verməyib. Rəsmi Bakı bu məlumatları rəsmi şəkildə nə təsdiq, nə də təkzib edib. Amma Milli Məclisin qərarı ilə sülhməramlı qüvvələrimiz Qəzza zolağına göndərilə bilər.

**Mövzu ilə bağlı deputat Hikmət Babaoğlu** “Yeni Müsavat”a qeyd edib ki, Qəzza sektorunda sülhməramlı missiyanın həyata keçirilməsi üçün ilk növbədə tərəflər arasında sülh şərtləri bərqərar edilməlidir: “İsrail-Fələstin münaqişəsi dünya siyasi tarixinin ən mürəkkəb, çoxqatlı və uzunömürlü qarşıdurmalarından biridir. Bu münaqişə onilliklər boyunca təkcə Yaxın Şərq regionunu deyil, həm də beynəlxalq nizamı, supergüc münasibətlərini və qlobal təhlükəsizlik arxitekturasını dərindən təsirləndirib. Hazırda qarşıdurmanın ən gərgin nöqtəsi Qəzza sektoru olaraq qalır. Hər nə qədər atəşkəs çağırışları səslənsə də, beynəlxalq təşkilatlar tərəfindən müxtəlif sülh planları irəli sürülsə də, bölgədəki vəziyyətin kəskinliyindən və tərəflər arasındakı etimadsızlıqdan aydın görünür ki, münaqişə hələ də davam edir və real sülh perspektivi hazırda çox zəif görünür.

Sülhməramlı missiyanın həyata keçirilməsi isə yalnız bir şərtlə mümkündür: tərəflər arasında əsas sülh şərtləri bərqərar edilməli, minimal etimad mühiti formalaşmalı və hə iki tərəf beynəlxalq qüvvələrin bölgəyə yerləşdirilməsinə razılıq verməlidir. Əks halda, istənilən sülhməramlı qüvvə yalnız kağız üzərində mümkün olar və praktiki olaraq təhlükəsizlik təminatını vermək gücündə olmaz. Bu mənada Azərbaycanın Qəzzaya sülhməramlı göndərilməsi məsələsində tərəddüd etməsi, məncə, məhz mövcud geosiyasi reallıqlarla bağlıdır. Azərbaycan regiondakı vəziyyətin son dərəcə qeyri-müəyyən olduğunu, tərəflərin hələ də bir-birinə açıq düşmən mövqeyində dayandığını və təhlükəsizlik zəmanətləri olmadığı üçün sülhməramlıların həmin məkanda real fəaliyyət göstərə bilməyəcəyini yaxşı dərk edir".

**Deputat bildirib ki, əgər gələcəkdə doğrudan da tərəflərin qarşılıqlı razılığı əsasında sülhün əsas parametrləri qəbul olunarsa, bölgədə davamlı atəşkəs təmin edilərsə və nəzəri deyil, praktik bir sülh prosesi yaranarsa, o zaman Azərbaycan da bu məsələyə öz mövqeyini yenidən nəzərdən keçirə bilər:** “Belə bir şəraitdə həm Azərbaycanın qərarını dəqiqləşdirməsi, həm də beynəlxalq platformalarda daha aydın mövqe ortaya qoyması mümkündür.

Əlbəttə ki, Azərbaycanın ordu personalının sülhməramlı missiyalar sahəsində kifayət qədər zəngin təcrübəsi var. Balkanlar, Əfqanıstan kimi mürəkkəb, siyasi qarşıdurmaların qaynadığı coğrafiyalarda Azərbaycan sülhməramlıları öz missiyalarını yüksək peşəkarlıqla və nümunəvi şəkildə yerinə yetiriblər. Lakin məsələ ondan ibarətdir ki, sülhməramlıların bölgəyə yerləşdirilməsi üçün ilk növbədə münbit siyasi və təhlükəsizlik zəmini olmalıdır. Hazırda Qəzza belə bir zəminin ən az olduğu mərkəzlərdən biridir. Müharibə aktiv fazadadır, tərəflərin mövqeləri sərtdir və beynəlxalq vasitəçilər belə real nəticə əldə etməkdə çətinlik çəkirlər.

Beləliklə, vəziyyət gələcəkdə aydınlaşarsa, tərəflər arasında minimal anlaşma mühiti yaranarsa və beynəlxalq təhlükəsizlik təminatları formalaşarsa, o halda düşünmək olar ki, bundan sonra Azərbaycan öz qəti mövqeyini ortaya qoya və məsələyə daha konkret şəkildə yanaşa bilər".

Xatırladaq ki, “İsrail-Hayom” qəzetinin məlumatında bildirilirdi ki, Qəzzaya göndəriləcək sülhməramlıların özəyini Azərbaycan və İndoneziya təşkil edə bilər. “Politico” nəşri isə bir neçə ölkənin Qəzzada yaradılması planlaşdırılan beynəlxalq sabitlik qüvvələrinə qoşulmaq üçün əsas namizəd ölkələrin Azərbaycan, İndoneziya və Pakistan olduğunu yazmışdı.

Azərbaycan sülhməramlı bölüyü 2003-2008-ci illərdə 152 nəfərlik şəxsi heyətlə İraqda beynəlxalq koalisiya qüvvələri tərkibində xidmət edib. 2009-cu il tarixdə Azərbaycan Ordusunun 90 nəfərlik sülhməramlı kontingenti Əfqanıstanda Türk taboru tərkibində fəaliyyət göstərib. Azərbaycan Ordusunun sülhməramlı qüvvələri 27 avqust 2021-ci ildə ölkəyə geri dönüb. Hazırda Azərbaycanın hər hansı xarici ölkə ərazisində sülhməramlı qüvvələri fəaliyyət göstərmir.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**



# Gürcüstan Azərbaycanı seçir - Rusiyadan imtina

**Gürcüstanın Azərbaycandan idxal etdiyi dizel yaxın zamanda Rusiyadan gətirilən həcmi tam şəkildə əvəz edə bilər. “Report”un Gürcüstan bürosu xəbər verir ki, bu barədə Neft İdxalçılar Birliyinin rəhbəri Vaxtanq İobaşvili “BusinessPress”ə açıqlamasında bildirib.**

V.İobaşvilinin sözlərinə görə, Azərbaycan dizeli yüksək keyfiyyətli “Avro-5" standartına uyğundur və hazırda həm Avropaya ixrac edilir, həm də Gürcüstan bazarında tələb sürətlə artır.

“Geostat”ın məlumatına əsasən, 2025-ci ilin oktyabr ayında Gürcüstan Azərbaycandan 20,035 milyon ABŞ dolları dəyərində 29 min 734 ton dizel və digər yanacaq məhsulları idxal edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 352,3 dəfə artım deməkdir. Ötən ilin oktyabrında cəmi 84,4 ton idxal olunub. Belə artımın səbəbinin əsasən dizel yanacağı ilə bağlı olduğu ehtimal edilir.

V.İobaşvili hesab edir ki, hazırda Azərbaycandan dizelə olan tələbat 40% artıb və perspektivdə daha da yüksələcək.

Neft İdxalçılar Birliyinin rəhbəri qeyd edir ki, Azərbaycandan dizel idxalının əsas üstünlüyü həm məhsulun keyfiyyəti, həm də logistik məsafənin yaxınlığıdır. Belə ki, Bakı-Tiflis marşrutu Rusiya ilə müqayisədə daha qısadır. Bu isə nəticədə nəqliyyat xərclərində əksini tapır. Digər tərəfdən, yanacağın keyfiyyətinin Gürcüstan laboratoriyalarında “Avro-5" yüksək standarta uyğun olması test əsasında təsdiq edilib.

“Bu, qiymətlərə müsbət təsir edəcək. Rusiya böyük ölkədir və uzun məsafə logistik xərcləri artırır. Azərbaycanın logistika xidmətləri isə daha münasibdir”, - V.İobaşvili bildirib.

O əlavə edib ki, dizel tədarükü artsa da, Azərbaycandan benzin idxalı ilə bağlı hələlik heç bir rəsmi xəbər yoxdur. Bununla belə, Kulevi ərazisində tikilən neft emalı zavodunun başa çatması ilə yerli istehsalın artacağı gözlənilir.

Azərbaycan dizelinin Gürcüstan üçün nə qədər ucuz olacağına gəlincə, V.İobaşvili qeyd edir ki, qiymətlər beynəlxalq “Platts” göstəricilərinə əsasən müəyyənləşdiyi üçün ölkələr arasında ciddi fərq gözlənilmir. Lakin logistik xərclərin daha aşağı olması ümumi qiymətlərin formalaşmasında müsbət rol oynaya bilər.

“Logistika xərcləri aşağıdır, amma yenə də hər şey "Platts"ın qiymətlərindən və dəmir yolu tariflərindən asılıdır. Tariflər isə hər il dəyişir", - birliyin rəhbəri qeyd edib.

# Netanyahu: “Suriyadan çıxmağı planlaşdırmırıq”



**İsrail Suriyanın cənubunda yerləşən bufer zonadan çıxmağı planlaşdırmır. Teleqraf yerli KİV-ə istinadla xəbər verir ki, bu barədə İsrailin baş naziri Benyamin Netanyahu səfirlərlə görüşündə bildirib. Baş nazir Suriyanın cənubunun silahsızlaşdırılması ilə bağlı Dəməşqlə razılaşmaya ümid etdiyini, amma buna baxmayaraq həmin bölgədə qalmaq istədiklərini söyləyib.**

Suriya Prezidenti Əhməd Şaraa noyabrın 6-da İsraili başqa ölkələrə böhran ixrac etməkdə günahlandırıb. Prezident bununla İsrail ordusunun Suriyanın cənubunda davamlı hücum və hava zərbələrinə işarə edib. Şaraa 1974-cü il atəşkəs xətti və qüvvələrin ayrılmasını müəyyən edən razılaşmanın bərpasına çağırıb. Bu razılaşma 1973-cü il oktyabr müharibəsindən sonra İsrail və Suriya qüvvələri arasında xətti müəyyən edirdi.

Netanyahu ötən həftə demişdi ki, Suriyadan paytaxt Dəməşqdən başlayaraq İsrailin ilhaq etdiyi Qolan təpələrinə qədər uzanan bufer zona yaratmasını gözləyir. Ötən ilin dekabrında keçmiş prezident Bəşər Əsədin devrilməsindən sonra İsrail BMT-nin nəzarətində olan bufer zona (Qolan təpələri ilə Suriyanın nəzarətindəki bölgələr arasında) və Suriyanın nəzarətində olan dağlarda hərbçilər yerləşdirib. Netanyahuya görə, bu bölgədə hərbi mövcudluq İsrail əhalisinin təhlükəsizliyi və sərhədyanı ərazilərdən mümkün hücumların qarşısını almaq üçün zəruridir.

Suriya xarici işlər naziri Əsəd Şibani dünən bəyan edib ki, Suriya hakimiyyət dəyişikliyindən sonra İsrail daxil olduğu ərazilərdən tam çıxmadan heç bir razılaşmaya getməyəcək.

YENİ MÜSAVAT
N 223 (8833) 9 dekabr 2025



# Ana dili müzakirələrinin tüstüsü

Zamin HACI
zaminhaci@gmail.com

"Buyruğu yenə bilgisiz imiş"
(Orhun yazıları, Bilgə Xaqanın kitabəsi)

**Yenə bir dəstə başbilən, bu dəfə parlamento binasında toplaşmış, ana dilimizi qorumaq uğrunda savaşa atılmışlar. Yəni Azərbaycan dilini. O dil ki, bu saat ərazisində heç bir hökumət idarəsində hörməti qalmamışdır. Uşaqlar məktəbdə oxuduğunu qanmır, dükan-bazar hamısı ingilis başlıqları altında, rus sektoru "Azərbaycan dili" uçağını salmaqla məşğuldur, işə düzəlmək üçün ya qaqulik ləhcəsində, ya ingilis dilinin Şri Lanka dialektində danışmalısan, restoranlar hətta bir ara ərəb dilində menyu yazırdı, indi xəbərim yoxdur.**

Lakin Milli Məclisdə toplaşmış hörmətli ziyalılar narahatlığını bildiribdir. Əsas bu deyilmi? Əsas budur. İndi yadıma düşdü, bir aralar Amerika da bizdə nəsə olanda narahatlığını bildirirdi, şükür, daha rahatlıq tapıblar. Narahat olmağa, prinsipcə, ciddi səbəb də yoxdur. Ana dilində kəndçi-kündçülər danışırdı, daha kənd yavaş-yavaş ləğv edilir, ona ehtiyac olmayacaqdır. Bilmirəm, monqol quzu ətinin tədarükü prosesində "Nənəm, a şişək qoyun, Yunu bir döşək qoyun" əzizləməsi - sayaçı sözləri səslənirmi... Bəlkə deyirlər, Orhon-Yenisey abidəsi o tərəflərdədir axı.

Ana dili dediyimiz bu dilə verdiyimiz rəsmi ad onun ahəng qanununa (bir sözdə qalın və incə saitlər olmaz, qalınsa hamısı qalın, incəsə hamısı incə olmalıdır) uyğun gəlmirsə, bəlkə problem elə bundadır? Həm də. Yəni dəqiq heç bir fikrim yoxdur.

Ümumiyyətlə, dil haqqında danışmaq mənə həmişə qırxayağa "birinci hansı ayağını atırsan" sualı vermək kimi gəlib. Dil haqqında danışmaq yox, dildə danışmaq lazımdır. Onun üçün də azad məkanlar olmalıdır. Dilin inkişafı həmin dildə danışan adamların azadlığından başlanır.

Problemi yaradanların problemdən danışması qədər tragikomik və absurd vəziyyət yoxdur. Misal üçün, məktəblərə cavabdeh adam... məktəblərdə dərs keçilmədiyindən şikayətlənir, qanunları düzəldənlər həmin qanunların pis dilindən. Rəhbərlik elədiyi qurumları dükan kimi işlədən "ziyalı" niyə dükanlara "market" adı qoyulmasına guya ağlaşma qurur. Niyə ki, hamısına "market" demirik, bəzisinin adı "birlikdir", özü də barter üsulu ilə çalışırlar: qoyunu gətir, vəsiqəni apar. Tam əski, gözəl zamanlardakı kimi.

Bakıdan Salyana 138 kilometr məsafədir. Yəni, heç bir ucqarlığı, uzaqlığı yoxdur. Təzəlikcə həmin Salyanın Aşağı Noxudlu kəndində məktəblilər tüstüdən zəhərlənmişdilər. Sən demə, orada məktəb hələ də odun sobası ilə qızdırılırmış. Buradan-bura həmin məktəbə qaz çəkmək, çağdaş isitmə sistemi qurmaq mümkün olmayıbsa, dili necə qoruyacaqsınız? Uşaqların ciyərinə tüstü dolanda hər hansı dildə danışa bilmir, uzağı "öhö-öhö" eləyib öskürüşürlər. Öskürməyin ana dilində olanı varmı, bilmirəm.

Yeri gəlmişkən, akademiya prezidenti də orfoepiya lüğəti qayırmaq üzərində gərgin iş getdiyini anons etmişdir. Orfoqrafiyanı yarıdıblar, indi orfoepiyaya keçirik. Ancaq burada kimin ləhcəsi əsas götürüləcək? Məsələ budur. Böyük ehtimal yenə havada qalan qaydalar lüğəti olacaq, ölü doğulmuş bu lüğəti sonradan heç məktəblərin zibilliyindən də tapmayacaqlar. Çünki məhz elə həmin orfoepiya qaydalarındakı çözülməsi imkansız mübahisələr üzündən Dövlət İmtahan Mərkəzi universitetlərə qəbulda orfoepiyadan sual salmağa risk eləmir. Qabaqlar yenə şəkili bakılını anlamağa çətinlik çəkirdi, indi mən Binəqədidə o biri küçədə nə danışırlar, başa düşmürəm.

İnternetdə bir video var, Bakıda hansısa küçəni yağış suları basıb, kadr arxasından kimsə tragikomik şərh verir: "Bakıya gedib dilinizi dəyişir, "ala-mala" ilə danışırsınız, kəndi bəyənmirsiniz, amma yaşadığınız küçə kənddən pisdir". Məncə, dil müzakirələrinin yekunu üçün əla təsbitdir.

Bax, kimsə "təsbit nə deməkdir" soruşsa, daha yerim qalmayıb.



# Bakının yaratdığı tarixi fürsət - yeni sülh modeli

## Hikmət Hacıyev və Armen Qriqoryan Dohada mühüm mesajlar verdi; 2026 yekun sənədin imzalanma ili olacaqmı? - gözlənti

**Dohada ötən həftəsonu keçirilən panel müzakirəsində Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bir sıra diqqətçəkən açıqlamalar verib. Bu açıqlamalar regionda əməkdaşlıq mühitinin bərqərar olmasında ölkəmizin həlledici rolunu bir daha təsdiqləyir. Eyni zamanda böyük sülhün əsas şərtlərini məhz rəsmi Bakının diktə etdiyini sübut edir.**

"Biz Cənubi Qafqazda yeni reallıqlar və yeni status-kvo yaradırıq. Əvvəllər daha çox müharibədən danışırdıqsa, indi ən çox sülh mövzusu diqqətdədir", - deyən Hacızadə bu xüsusda qeyd edib ki, tarixi Vaşinqton anlaşması bölgəni tamamilə dəyişəcək. Cənubi Qafqazda son 30 il ərzində münaqişə və müharibənin hökm sürdüyünü xatırladan Hikmət Hacıyev, nəhayət, buna son qoyulduğunu qeyd edib: "Mən bunu tez-tez Cənubi Qafqaz üçün "Kemp-Devid sülh modeli" adlandırıram. Əlbəttə, hər bir münaqişə fərqlidir. Hər bir geosiyasi kontekst də fərqlidir. Amma əminəm ki, bu sazişin təsiri də oxşar olacaq".

Öz növbəsində **Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan** da forumda çıxışı zamanı regionda yaranmış yeni reallıqlara toxunub. Qriqoryan bildirib ki, əgər bir-iki il öncəyə qədər Bakı və İrəvan arasında ziddiyyətli narrativlər əsas xətti təşkil edirdisə, hazırda tərəflər arasında kəsişən mövqelər və oxşar yanaşmaların sayı artır. Onun sözlərinə görə, müəyyən məsələlər üzrə fərqlər qalmaqda davam etsə də, reallıq göstərir ki, əməkdaşlıq üçün imkan genişdir. Erməni rəsmisi habelə sülh üçün siyasi iradənin həlledici rol oynadığını vurğulayıb: "Əməkdaşlıq iradəsi olduqda gələcək daha stabil ola bilər. Beynəlxalq ictimaiyyət prosesə dəstək verərsə, bölgədə davamlı sülhün qurulması mümkündür".

Bu yanaşma əslində Ermənistan tərəfindən ilk dəfə deyil səslənir. Şübhə yox ki, prosesin real nəticəyə çevrilməsi ilk növbədə İrəvanın praktiki addımlarından, xüsusən kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və sülh sazişinin imzalanmasından asılı olacaq.

İrəvan Bakıya sülh siqnalları göndərməkdə nə dərəcədə səmimidir? Qriqoryan "beynəlxalq ictimaiyyət prosesə dəstək verməlidir" deyərkən nəyə işarə edir? Böyük sülhə nə qədər yaxınlaşmışıq?

Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Qətərdə keçirilən Doha forumunda Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sülhə xidmət edən daha maraqlı açıqlamalar verib: "Ermənistanla sülh quruculuğu barədə mühüm açıqlamalar verdi. Birincisi, Prezidentin köməkçisi bildirdi ki, Azərbaycan üçün müharibə bitib. Onun sözlərinə görə, sülh rifah yaratmalı, bölgədə inkişafı təmin etməli, Cənubi Qafqazın bütün geosiyasi mənzərəsini dəyişdirməlidir. İkincisi, Hikmət Hacıyev çıxışında xalqlar arasında etimadın da önəmli olduğunu vurğuladı. Bunun üçün çox çalışmaq lazım gəldiyini bildirən Hikmət Hacıyev sülhü pozmaq istəyən qüvvələrin olduğunu xatırlatdı. Prezidentin köməkçisinin sözlərinə görə, elə regional təhlükəsizlik arxitekturası qurulmalıdır ki, sülhə qarşı bütün mənfi meyllərə tab gətirsin. O, bunun üçün ilkin mərhələdə hökumətlər arasında etimadın qurulması vacibliyini, ikinci mərhələdə isə xalqlar arasında etimadın əhəmiyyətini səsləndirdi. Hikmət Hacıyev haqlıdır. Azərbaycan sülh sazişini yalnız Ermənistan hökuməti ilə imzalamaq istəmir. Sülh sazişi məcazi mənada həm də Ermənistan xalqı ilə imzalanmalıdır ki, qonşu ölkənin sonrakı hökumətləri sülhün əleyhinə addım atmasınlar".

**Politoloq qeyd etdi ki, şübhəsiz, xalqlar arasında etimad qurmaq asan olmayacaq:** "Çünki 30 illik münaqişə nəticəsində böyük itkilər olub, azərbaycanlılara qarşı müxtəlif soyqırımlar həyata keçirilib. Buna baxmayaraq, Cənubi Qafqazda xalqlar arasında sülhün alternativi yoxdur. Bu baxımdan 8 avqustda Vaşinqtonda imzalanan razılaşmaların əhəmiyyəti böyükdür. Həmin tarixdən başlayaraq Azərbaycan və Ermənistan rəsmiləri arasında danışıqlarda fikir ayrılıqlarını dərinləşdirən mövzular deyil, sülhə və əməkdaşlığa xidmət edən mövzular müzakirə olunur. Bunu Ermənistan rəsmiləri də təsdiqləyirlər. Təsadüfi deyil ki, Doha forumunda çıxış edən Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da bildirib ki, əgər bir-iki il öncəyə qədər Bakı və İrəvan arasında ziddiyyətli narrativlər əsas xətti təşkil edirdisə, hazırda tərəflər arasında kəsişən mövqelər və oxşar yanaşmaların sayı artıb. Danışıqların bu səpgidə davam etdirilməsi iştirakçı ölkələr və ümumilikdə bölgənin gələcəyi üçün faydalıdır. Ermənistanda qeyri-adi hadisə baş verməsə, 2026-cı il Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması və Ermənistan ərazisində "Tramp yolu"nun tikintisinə başlanacağı il olacaq".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"



# ABŞ-dən generalın Bakı səfəri ilə bağlı açıqlama

**"Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığının (EUCOM) Tərəfdaşlıq, Təhlükəsizlik sahəsində əməkdaşlıq və Kütləvi qırğın silahlarına qarşı mübarizə üzrə direktor müavini, general-mayor Kris Makkininin səfəri Birləşmiş Ştatlar və Azərbaycanın uzunmüddətli müdafiə əməkdaşlığını möhkəmləndirdi".**

Bu barədə ABŞ-nin Azərbaycandakı səfirliyinin Kris Makkininin səfərinin yekunlarına dair yaydığı məlumatda deyilir.

"ABŞ-nin Avropa Komandanlığının Tərəfdaşlıq, Təhlükəsizlik sahəsində əməkdaşlıq və Kütləvi qırğın silahlarına qarşı mübarizə üzrə direktor müavini, general-mayor Kris Makkini 30 noyabr - 3 dekabr tarixlərində Bakıda səfərdə olub. Səfər çərçivəsində general-mayor Makkini Müdafiə Nazirliyində və Fövqəladə Hallar Nazirliyində görüşlər keçirib, həm Müdafiə Nazirliyinin, həm də Fövqəladə Hallar Nazirliyinin nüvə, radioloji, kimyəvi və bioloji təhlükələr üzrə mübarizə bölmələri ilə müzakirələr aparıb və Şəhidlər xiyabanını ziyarət edərək ehtiramını bildirib", - qeyd olunub.

K.Makkini səfər çərçivəsində Azərbaycanın, eləcə də regionun təhlükəsizliyi və sabitliyinə dair ortaq maraqları vurğulayıb.




## Bakıdan 3+3 formatı ilə bağlı yeni mesaj

**"Biz hesab edirik ki, Ermənistanın Azərbaycanın 2024-cü ildə etdiyi təklifi qəbul etməməsi üçün heç bir əsas yoxdur. Bizim təklifimiz qüvvədədir".**

APA xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bakıda iranlı həmkarı Abbas Əraqçi ilə birgə mətbuat konfransında deyib.

3+3 formatının yaradılması təşəbbüsü Azərbaycan Prezidenti tərəfindən irəli sürülüb və bu çərçivədə 3 görüş keçirilib. 2024-cü ilin oktyabrında keçirilən görüş zamanı növbəti görüşün Azərbaycanın ev sahibliyində təşkili təklif edilib. Lakin təəssüf ki, belə bir razılıq əldə olunmadı. Ermənistan tərəfi buna razı olmadı. Hazırda isə fərqli mühit mövcuddur. Artıq başqa kanallar vasitəsilə bu görüşlərin təşkili müzakirə olunur", - deyə o bildirib.

Nazir qeyd edib ki, Azərbaycan bu görüşə ev sahibliyi etməyə hazırdır.

Xatırladaq ki, bir müddət əvvəl Ermənistan XİN 3+3 formatında növbəti görüşün tarixi və yerinin hələ müəyyənləşdirilmədiyini bildirmişdi.

# Bakı-Tehran əlaqələrində yeni mərhələ

## İran XİN rəhbəri Azərbaycan Prezidenti ilə görüşdü, dövlət başçısının səfərini gözlədiklərini açıqladı



**Dekabrın 8-də ölkəmizdə səfərdə olan İran İslam Respublikasının xarici işlər naziri Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib. Nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.**

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iranlı nazirin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Azərbaycanla İran arasında əlaqələrin böyük tarixinin olduğunu deyən Prezident İlham Əliyev qeyd edib ki, xalqlarımızın əsrlər boyu bir yerdə yaşaması münasibətlərimizə xüsusi önəm verir. Son dövrlərdə əlaqələrimizin fəallaşmasından məmnunluğunu bildirən dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfərinin, həmçinin digər yüksəkvəzifəli şəxslərin qarşılıqlı səfərlərinin əməkdaşlığımızın daha da genişləndirilməsinə töhfə verdiyini vurğulayıb.

Prezident İlham Əliyev ikitərəfli gündəliyimizin geniş olduğunu və bir çox sahələri əhatə etdiyi deyərək, bütün məsələlər üzrə konkret yol xəritələrinin olduğunu bildirib.

Hökumətlərarası komissiyanın çox uğurla fəaliyyət göstərdiyini vurğulayan dövlətimizin başçısı bu xüsusda iqtisadi, ticari, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığa toxunub.

Azərbaycan Prezidenti İran nümayəndə heyətinin səfərinin uğurlu və məhsuldar olacağına əminliyini ifadə edib.

Qəbula görə təşəkkürünü bildirən Seyid Abbas Əraqçi, ilk növbədə, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırıb. O qeyd edib ki, İranın dövlət başçısının Prezident İlham Əliyevə və Azərbaycana böyük hörməti var. Qonaq Məsud Pezeşkianın İran Prezidenti seçilməsindən sonra ölkəmizlə əlaqələri daha da inkişaf etdirməklə bağlı tapşırıq verdiyini deyib.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş edib.

Seyid Abbas Əraqçi də öz növbəsində Azərbaycan-İran əlaqələrinin dərin köklərə malik olduğunu vurğulayaraq, münasibətlərimizin daha da dərinləşdirilməsinin əhəmiyyətinə toxunub.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla iranlı həmkarı Abbas Əraqçi arasında da təkbətək və geniş tərkibdə görüşlər keçirilib.

Musavat.com xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin X hesabında məlumat paylaşılıb.

Bildirilib ki, tərəflər Azərbaycan və İran arasında xoş qonşuluq əlaqələrinə və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığın cari gündəliyi və perspektivlərini müzakirə ediblər.

Nazirlər siyasi məsləhətləşmələrdən Birgə Dövlət Komissiyasına və geniş hüquqi müqavilə bazasına qədər güclü institusional çərçivələrin Azərbaycan və İranın daha da gücləndirməyə sadiq olduqları sabit və gələcəyə yönəlmiş ikitərəfli münasibətlər üçün möhkəm bir arxitektura təmin etdiyini vurğulayıblar. Həmçinin iqtisadi-ticarət əməkdaşlığını artırmaq yollarını və vasitələrini, xüsusilə də "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi və Şərqi Zəngəzur iqtisadi rayonu ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında əlaqə layihələri daxil olmaqla nəqliyyat-logistika sahəsinə diqqət yetiriblər.

Eyni zamanda humanitar, xüsusilə də Bakı-Tehran/Təbriz arasında aviareyslərin artırılması, təhsil, mədəniyyət və turizm sahələrində əməkdaşlığa toxunulub.

Bundan başqa, BMT, Qoşulmama Hərəkatı və İƏT kimi beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, həmçinin Azərbaycan-Ermənistan normallaşma prosesi və Azərbaycanın azad edilmiş ərazilərində münaqişədən sonrakı yenidənqurma işləri barədə fikir mübadiləsi aparılıb.

"Azərbaycan Prezidentinin Tehrana səfərini gözləyirik". Əraqçi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birgə mətbuat konfransında deyib. O həmçinin qeyd edib ki, İran Azərbaycanla əlaqələri bütün sahələrdə gücləndirmək əzmindədir.

**Professor Fikrət Yusifov "Yeni Müsavat"a bildirdi ki, yerləşdiyimiz bölgədə gerçəkdən sülh istəyən, heç bir dövlətin daxili işlərinə qarışmayan, qonşu ölkələrlə yalnız qarşılıqlı faydaya söykənən əməkdaşlıq qurmağı hər şeydən üstün tutan yeganə ölkə Azərbaycandır**: "Dövlətimiz müstəqilliyinin ilk illərindən özünün xarici siyasətinin fəlsəfəsini belə formalaşdırıb. Lakin bu illər ərzində Azərbaycan dövləti kimliyindən asılı olmayaraq onun müstəqilliyinə zərbə vurmaq istəyən və bu məqsədlə ölkənin daxili işlərinə qarışmaq istəyənlərin layiqli cavabını verib və bu yol xarici siyasətimizin ayrılmaz bir qoludur. Bu yolda bəzən dünya nəhəngləri ilə qarşı-qarşıya qalsaq da, geri çəkilməmişik. Buna konkret misal, ABŞ-nin Co Bayden hakimiyyətinin Azərbaycana qarşı haqsız basqılarını, Fransanın indiki prezidenti Emmanuel Makronun 44 günlük müharibədən və bir günlük antiterror əməliyyatından sonra Azərbaycana qarşı hətta beynəlxalq səviyyədə basqılar etmək cəhdlərini göstərə bilərik. Azərbaycan bu basqılara layiqli bir formada sinə gərə bildi. Çünki haqlı idi. Həm də ona görə ki, kənar güclərin onun daxili işlərinə qarışmasına yol verməkistəmirdi.

Biz müstəqil dövlət kimi yolumuzu gözləyəcək bütün tərəflərə açığıq və harada yerləşməsindən asılı olmayaraq bütün dövlətlərlə qarşılıqlı faydaya söykənən əməkdaşlıq qurmaq istəyindəyik. İran da bu sırada istisna təşkil edə bilməz. Lakin təəssüflər olsun ki, torpaqlarının işğal dönəmində Azərbaycan İrandan real hər hansı bir dəstəyi ala bilmədi. Bizə hər mənada bu qədər yaxın olan bir dövlətin ermənin işğalını körükləməsi qəlbimizi yaraladı. Bu yara ona görə dərin oldu ki, İranda əhalinin 2/3 hissəsi Azərbaycan türklərdir. Sanki bizə bu xəyanəti bir başqası deyil, doğma qardaşımız edirdi. Ancaq biz içimizdə yaxşı anlayırdıq ki, İranın ermənin işğalına bu münasibəti bizim soydaşların deyil, İran rejiminin münasibətidir. Bu məsələdə bizi yeganə sakitləşdirən amil də bu idi.

İşğal başa çatdı. İndi Azərbaycan işğal dövründə İranla münasibətlərdə yaranmış buzların əriməsini istəyir. Xalqımız kimi dövlətimiz də içində kin bəsləyə bilmir. Çünki bu dövləti də bu xalq qurubdur! Odur ki, son illər ərzində İranla bütünü səviyyələrdən olan münasibətlərin inkişafı və dərinləşdirilməsi yolunu tutmuşuq. Bu gün İranın xarici işlər naziri də Azərbaycana Azərbaycan Xarici İşlər Nazirliyinin dəvəti ilə gəlib. Biz on milyonlarla qardaşımızın yaşadığı bir ölkə ilə əlaqələrimizi inkişaf etdirmək və dərinləşdirmək istəyindəyik. Ancaq təəssüflər olsun ki, İran hakimiyyətinin bəzi mollaları münasibətlərdə yaranmış buzların getdikcə əridiyi indiki dönəmdə də hərdən Azərbaycanın ünvanına sərsəm sayıqlamalar edə bilirlər. İran hakimiyyəti bunun qarşısını almalıdır. Çünki bu ürəkbulandıranlar sıradan biriləri deyil. Onların statusu bizə imkan verir düşünək ki, bu adamlar öz fikirlərini deyil, dövlətin baxışlarını ifadə edirlər. Bu isə münasibətlərə kölgə salacaq qədər təhlükəlidir..."

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

## Azərbaycan səfirliyindən Suriya açıqlaması



**"Azərbaycan Suriya ilə bərpa və yenidənqurma təcrübəsini paylaşmağa hazırdır".**

APA xəbər verir ki, bu barədə Azərbaycanın Suriyadakı səfirliyi X-də paylaşım edib.

"Bir il əvvəl, bu gün dünya Dəməşqin öz xalqına qayıtmasının, haqqın qanuni sahiblərinə qaytarılmasının və ədalətsizlikdən və cinayətkarlıqdan qurtuluşunun şahidi oldu. Dost Suriya xalqı böyük fədakarlıqlar göstərib", - paylaşımda vurğulanıb.

Bildirilib ki, bu gün Suriya xalqı bütün sahələrdə vətənini bərpa etmək üçün səylə çalışır: "Onların əzmi və səyləri dağıntılar altından qalxaraq unikal nailiyyətlər əldə edəcək bir dövlət qurmaq qabiliyyətlərini dünyaya nümayiş etdirir. Azərbaycan Respublikası azad edilmiş ərazilərdə davam edən yenidənqurma və bərpa prosesi zamanı qazandığı bütün təcrübələri bölüşməyə hazırlaşır".

YENİ MÜSAVAT
N 223 (8833) 9 dekabr 2025



# SEPAH mediasından Bakıya yeni böhtan

**İranda SEPAH-a bağlı medianın Azərbaycana qarşı qərəzi dayanmır. Tribuna.az xəbər verir ki, bu dəfə İLNA Agentliyi "ön plana" çıxıb. Agentlik "İsrail-Azərbaycan hərbi əməkdaşlığı artıb; İrana qarşı yeni cəbhə yaranıbmı?" başlıqlı yazı dərc edib. Yazıda iddia olunur ki, İsrail və Azərbaycan arasında münasibətlər Xəzər dənizində İrana qarşı yeni cəbhə yarada və regionda İran və Rusiya donanmalarına qarşı güc balansını dəyişə biləcək bir mərhələyə çatıb.**

Bu azmış kimi, İLNA bir qədər də "irəli" gedərək bu münasibətləri "Azərbaycan cəbhəsi" adlandırıb. "Bu cəbhə lazım gələrsə, İrana qarşı hərbi əməliyyatlara hazırdır və İsraillə Bakı arasında strateji müttəfiqlik yeni səviyyəyə qaldırılıb".

Agentliyin iddiasına görə, hadisələr İsrail Müdafiə Araşdırmaları və İnkişafı Agentliyinin rəhbəri, istefada olan polkovnik Daniel Quldun rəhbərlik etdiyi yüksək səviyyəli İsrail təhlükəsizlik nümayəndə heyətinin Azərbaycana nadir və gizli səfərindən sonra baş qaldırıb. İran tərəfinin bu qərəzi dayanmaq bilmir. Hər vəchlə çalışırlar ki, rəsmi Bakını hədəfə alıb, onun haqqında mənfi rəy yaratsınlar. Bu da onlardan biridir.



# Türk ordusu Suriyaya girdi

**Türkiyə Silahlı Qüvvələri üç istiqamətdən - Afrin, Ras əl-Ayn və Hələbin şimalından Suriyaya daxil olub.**

Bu barədə Türkiyə mətbuatı yazıb. Bildirilib ki, hərbçilər xüsusilə Menbiç xəttinə doğru irəliləyirlər. Eyni zamanda Dəməşq hökuməti SDQ-nin (Suriya Demokratik Qüvvələri) nəzarətində olan Deyr az-Zora artilleriya və PUA (pilotsuz uçuş aparatı) ilə dəstəklənən əlavə qüvvələr göndərib.

Türkiyə Silahlı Qüvvələrinə məxsus konvoylardan birinin Deyr-Ballut sərhəd qapısından Hələb bölgəsinə, digərinin isə gecə saatlarında Ədvaniyyə sərhəd qapısından Suriyaya daxil olduğu bildirilir. Konvoylarda zirehli texnika ilə yanaşı bir sıra logistik elementlərin də olduğu qeyd edilir.

# "Ermənistan İsrail üçün təhlükədir"


Şimon Beriman

**"Ermənistan İranın müttəfiqidir, bu, İsrail üçün potensial təhlükəsizlik təhdididir".**

Tribuna.az xəbər verir ki, bunu israilli analitik Şimon Beriman deyib. Onun sözlərinə görə, İsrailin Azərbaycana münasibəti ilə Ermənistana münasibəti arasında əsaslı fərq var. "Təl-Əviv-Bakı xətti bizim üçün həmişə prioritetdir. Təl-Əviv-İrəvan xətti bir çox səbəblərə görə yalnız üçüncü dərəcəli marşrutdur". Beriman qeyd edib ki, İsrailin Azərbaycanla strateji tərəfdaşlığı, eyni zamanda ümumi geosiyasi və kommersiya maraqları var. "Ermənistan daha çox antisemitdir. Onların sosial şəbəkələrində bunu aydın görmək olar. Bu, riskli məsələdir".

O yekunda bildirib ki, Azərbaycan-İsrail münasibətləri çətin sınaqlardan keçib: "Bunun daha da möhkəmlənməsi üçün hər cür şans var".

# Putindən sensasion "SSRİ-2" açıqlaması - blef, yoxsa...

## Kreml lideri "o halda Rusiyanın etnik və dini tərkibi kökündən dəyişəcək" sözləri ilə nəyə işarə edir?

**"SSRİ-nin bərpasından söhbət gedə bilməz, Rusiyanın belə bir məqsədi yoxdur". Bunu Rusiya Prezidenti Vladimir Putin "İndia Today" telekanalına müsahibəsi zamanı müvafiq suala cavabında deyib. "Xeyr, əlbəttə ki, yox. Bundan söhbət gedə bilməz. Bunun, sadəcə, mənası yoxdur. Orada rasionallıq məsələsi də var. Hazırkı şəraitdə bunun heç bir mənası yoxdur, çünki bu, Rusiya Federasiyasının etnik və dini tərkibini kökündən dəyişdirəcək", - Putin qeyd edib.**



Kreml rəhbəri onu da bildirib ki, guya Qərbdə Rusiyanın Sovet İttifaqını bərpa etmək arzusunda olduğunu deyənlər öz əhalisini qorxutmağa çalışırlar. Əslində son illərdə, xüsusilə də 2014-cü ildən sonra Krımın ilhaqı və 2022-ci ildən etibarən isə Ukraynaya qarşı genişmiqyaslı hərbi müdaxilə fonunda, Rusiyanın postsovet məkanı ilə bağlı artan ambisiyaları ciddi narahatlıq doğurmaqdaydı. Və bu, yaxın gələcəkdə Rusiyanın postsovet ölkələrini yenidən öz patronajlığı altına salmaq planlarını büruzə verirdi.

Onu da qeyd etmək lazımdır ki, Rusiya siyasi dairələrinin hazırda keçmiş SSRİ-nin dağılmasını "tarixi səhv" və "qeyri-qanuni proses" kimi təqdim etməsi Kremlin postsovet məkanına yönəlik aqressiv ssenarilərinin mövcudluğunu təsdiqləyir.

Putinin "SSRİ-2" ilə bağlı sözlərini necə oxuyaq? Arxayınçılığa əsas varmı? Ona inanmaq olarmı? Ukraynanın başına gətirilənlər necə olsun bəs? Axı vaxtilə Putinin özü Krımın Rusiyaya birləşdirilməsini ağılsızlıq adlandırmışdı. Nəhayət, Kreml rəhbəri o halda "Rusiyanın etnik və dini tərkibini kökündən dəyişəcək" sözləri ilə nəyə işarə edir?

**Hərbi ekspert Ramil Məmmədli** SSRİ-nin eskalasiya ilə bərpasını mümkün saymır. Onun fikrincə, Ukraynada blitzkriq baş tutmadı və uzunmüddətli münaqişəyə çevrildi: "Qərb Krımın ilhaqına göz yumduğu kimi bütün Ukraynanın götürülməsinə razılaşmadı. Ona görə genişmiqyaslı hərbi əməliyyatlara qarşı müdafiə bloku yaratdı. Bu da Ukraynanı böyük ölçüdə işğaldan qorudu, amma ərazisinin Krım daxil olmaqla, 20 faizi nəzarətindən çıxıb. Əgər Kiyevdə hərbi yolla çevriliş olsaydı, Ukrayna ittifaq dövlətinə daxil olacaqdı. Bax, bu zaman SSRİ - 2 adlanan modelin yaranması istisna deyildi. Söhbət ondan getmir ki, sovet ideologiyasının yaşadılması, pioner qalstuku taxılması, hər yerdə Leninin heykəli, kommunizmin təbliği olacaqdı. Qətiyyən! Sadəcə, Ukraynanın ardınca digər keçmiş sovet respublikaları da Rusiyanın orbitinə daha da yaxınlaşacaqdı. Yəni Putin postsovet məkanına tam nəzarət edəcək və Qərbin təsirlərini sıfıra endirəcəkdi. İndi isə vəziyyət fərqlidir və Rusiya geosiyasi bir qarşıdurmanın içərisindədir, o baxımdan Kreml lideri SSRİ-nin bərpasını real görmür".

**Siyasi təhlilçi Alim Nəsirov** hesab edir ki, hadisələrin gedişatı Rusiyanın Ukrayna müharibəsindən necə çıxmasından asılı olacaq. Onun fikrincə, zəifləməkdə olan Rusiyanın Cənubi Qafqaz və Orta Asiyada mövqeyi əvvəlki qədər möhkəm deyil: "Hazırda ABŞ 5C+1 platforması qurur. Eynilə Türk Dövlətləri Təşkilatı var. Bu təsisatlar Rusiyanın regionda təsir imkanlarını azaldır. Odur ki, Rusiyanın SSRİ planları dəfn olunmuş sayıla bilər. Rusiya Ukraynada qalib gəlsəydi, bu gün başqa reallığın şahidi ola bilərdik. Hətta bu, Qarabağ məsələsində də özünü göstərəcəkdi. Rusiyanın strateji mövqelərinin əlindən çıxması onun imperiya planları alt-üst edib. Ona görə də Rusiya lideri bu bəyanatlarla çıxış edib. Kreml başçısı deyə bilməzdi ki, Rusiya SSRİ-ni bərpa etmək arzusundadır. Belə də danışmalıydı. Amma özü də vaxtında deyib ki, SSRİ-ni dağılmasına sevinənlərin ürəyi, bərpasını arzulayanların ağlı yoxdur".

**Siyasi şərhçi Azər Hüseynov Nocomment.az-a qeyd edib ki, Putinin açıqlamalarında SSRİ-yə dair zidd görünən mesajlar iki fərqli nüansı ifadə edir:** "Bir tərəfdən o, SSRİ-nin siyasi-coğrafi mənada - yəni 15 respublikanın yenidən vahid dövlət kimi birləşməsi anlamında bərpasının mümkün olmadığını dəfələrlə vurğulayır. Bu, həm beynəlxalq hüququn mövcud arxitekturası, həm də postsovet respublikalarının 30 ildən artıqdır öz dövlətçiliyini formalaşdırması fonunda real olmayan bir ssenaridir. Putin də bu reallığı qəbul edir. Lakin digər tərəfdən Kremlin ritorikasında "SSRİ 2" kimi ifadələrin işlənməsi tamamilə başqa bir hədəfə işarə edir: təsir dairəsinin bərpası. Bu anlayış postsovet məkanında nəzarətin, koordinasiyanın və Rusiyanın "strateji dominasiya"sının mümkün qədər gücləndirilməsi deməkdir. Yəni burada söhbət formal və hüquqi birləşmədən yox, geosiyasi təsir zonasından gedir".

**Siyasi şərhçinin sözlərinə görə, bu yanaşma yalnız Rusiyaya xas deyil - bütün böyük güclər oxşar məntiqlə hərəkət edir:** "ABŞ, Çin, Türkiyə, Hindistan, hətta Fransa belə öz coğrafi ətrafını strateji təsir sahəsi kimi qəbul edir. Böyük güc konsepsiyası tələb edir ki, sərhədin kənarında yaranan hər bir siyasi, iqtisadi və ya təhlükəsizlik prosesi həmin gücün maraqları ilə ziddiyyət təşkil etməsin. Rusiya da özünə məhz bu çərçivədən baxır. Bu kontekstdə Putin "SSRİ-nin bərpası mümkün deyil" dedikdə hüquqi və inzibati birliyi nəzərdə tutur, "SSRİ 2" ifadəsini işlədəndə isə daha çox tarixi nüfuzun, təhlükəsizlik tampon zonalarının, iqtisadi-informasiya nəzarətinin və regional yönləndiricilik imkanlarının bərpası nəzərdə tutulur".

A.Hüseynov qeyd edib **ki, Moskvaya görə postsovet məkanı Rusiyanın "yaxın xaric"idir və burada boşluq yarandıqda başqa güclərin - ABŞ, Aİ, Çin, Türkiyə - təsiri artır:** "Bu isə Kreml üçün təhlükəsizlik baxımından riskdır. Xüsusilə Ukrayna müharibəsi göstərdi ki, Rusiya üçün bu məsələ, sadəcə, "təsir dairəsi" məsələsi deyil, birbaşa milli təhlükəsizlik amilidir. Bununla belə, Azərbaycan öz ehtiyatını görməli, təhlükəsizlik şəbəkəsini geniş şəkildə qurmalı, Türkiyə ilə müttəfiq əlaqələri daha dərin etməlidir".

Yada salaq ki, Rusiya Prezidenti Vladimir Putinin müşaviri Anton Kobyakov və Dövlət Dumasının deputatı Nina Ostanina SSRİ-nin hələ də hüquqi baxımdan mövcud olduğunu iddia edib. Ekspertlər və müşahidəçilər sözügedən fikirləri heç də təsadüfi hesab etmir. Çünki Rusiya kimi ölkədə dövlətə yaxın şəxslərin Kremlin razılığı olmadan bu cür bəyanatlar verməsi mümkün deyil. Sankt-Peterburq Beynəlxalq Hüquq Forumunun yekun mətbuat konfransında çıxış edən Anton Kobyakov açıq şəkildə bildirib ki, SSRİ-nin dağılması zamanı hüquqi prosedurlar pozulub və bu səbəbdən Sovet İttifaqı hüquqi baxımdan hələ də mövcuddur. Onun sözlərinə görə, SSRİ Xalq Deputatları Konqresinin qərarı ilə yaradılıb və yalnız həmin qurumun qərarı ilə buraxıla bilərdi. Lakin 1991-ci ildə belə bir qərar verilməyib.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 223 (8833) 9 dekabr 2025

# Ən etibarlı sobalar - "səssiz qatil" fəlakəti davam edir

## Bu il də acı statistika dəyişmir: regionlarda, hətta paytaxtın mərkəzində belə zəhərlənmə halları qeydə alınır; dəm qazından ölümlərin səbəbləri açıqlandı



**Qış yaxınlaşdıqca "səssiz qatil" - dəm qazı təhlükəsi yenidən ölkənin gündəminə çevrilib. Hər mövsüm olduğu kimi, bu dəfə də acı statistika dəyişmir: regionlarda, kəndlərdə, hətta paytaxtın mərkəzində belə zəhərlənmə halları ard-arda qeydə alınır. Sanki hər kəs bilir ki, təhlükə var, amma kimsə onu ciddi qəbul etmir.**

Mütəxəssislər bildirir ki, ölümə aparan əsas səbəblərdən biri illərdir evlərdə quraşdırılan və "pitiminutka" kimi tanınan su qızdırıcılarıdır. Bu cihazların düzgün quraşdırılmaması, hermetikliyin pozulması və bacaların tıxanması dəm qazının yaşayış otaqlarına dolmasına şərait yaradır. Nəticə isə məlumdur: ailələr bir gecənin içində faciə ilə üz-üzə qalır.

Uzmanların fikrincə, qış mövsümü başlamadan hər bir evdə tüstü bacaları təmizlənməli, qızdırıcı cihazlara texniki xidmət göstərilməli, ventilyasiya sistemi yoxlanmalıdır. Xüsusən hamam otaqlarında quraşdırılan su qızdırıcıları daha böyük təhlükə yaradır. Bu səbəbdən həmin cihazların ev daxilindən çıxarılaraq eyvanda və ya açıq havaya yaxın yerdə quraşdırılması tövsiyə olunur.

Bəs fəlakət niyə davam edir? Səbəb həm də bazarda yayılan keyfiyyətsiz sobalardır. Bu cihazların böyük hissəsi heç bir sertifikatlaşdırmadan keçmir, təhlükəsizlik mexanizmləri ya zəifdir, ya da ümumiyyətlə yoxdur. Mütəxəssislər xəbərdarlıq edir ki, qazla çalışan istənilən soba yalnız avtomatik söndürmə sistemi, yanğın-duman sensoru və standartlara uyğun tüstü çıxarışı olan modellərdən seçilməlidir.

Amma bütün bunlara rəğmən, faciələr baş verir. Çünki ən müasir cihaz belə, düzgün quraşdırılmadıqda öldürücü silaha çevrilir. Ona görə də mütəxəssislərin bir daha təkrarladığı mesaj dəyişmir: təhlükəsizlik xidmətinə qənaət insan həyatına qənim olur.

Bəs niyə dəm qazı ölümlərinə son qoymaq mümkün olmur? Ən etibarlı sobalar hansılardır?

**Mövzu ilə bağlı kommunal xidmətlər üzrə ekspert Nüsrət Qasımov "Yeni Müsavat"a danışıb. O bildirib ki, dəm qazından zəhərlənmələrin əsas səbəbi tüstü bacalarının düzgün quraşdırılmamasıdır:** "Tüstü bacası qaz yanan cihazdan çıxan tüstünü və karbon monoksidi tamamilə uzaqlaşdırmalıdır. Bunun üçün bacanın ucu damdan ən azı yarım metr hündür olmalı, üzərində isə "papaq" adlanan qoruyucu olmalıdır.

Bəzi evlərdə tüstü borusu pəncərədən çıxarılır, bəzilərində divar deşilərək boru kənara uzadılır. Bu, tamamilə səhvdir. Çünki bu halda tüstünün çıxma sürəti çox zəif, saniyədə cəmi millimetr olur. Halbuki Bakıda küləyin sürəti tez-tez 40 m/s-ni keçir. Bayırdan gələn güclü külək tüstünü geri otağa doğru itələyir və karbon monoksid evə dolur. Bu qaz tamamilə qoxusuz, rəngsiz və görünməzdir. Onu hiss etmək mümkün deyil. İnsan qazı yandırıb yatdıqda bir neçə dəqiqə ərzində zəhərlənərək həyatını itirə bilər.

Karbon monoksid yalnız qazdan deyil, neft, odun, kömür, plastik və digər maddələrin yanmasından da əmələ gəlir. Yəni bu, universal zəhərdir və təhlükəsi çox yüksəkdir.

Qaz cihazı işləyən məkanda uzun müddət oturmaq, yatmaq, istirahət etmək, hətta kitab oxumaq belə olmaz. Əgər çay dəmlənibsə, yemək bişibsə, cihaz dərhal söndürülməlidir. Mətbəxdə və qazla işləyən bütün otaqlarda pəncərə və hava dövranı daim açıq olmalıdır. Bu qaydalar mütləq şəkildə əhaliyə izah edilməli, qaz təchizatı qurumları və aidiyyəti dövlət strukturları tərəfindən davamlı maarifləndirmə aparılmalıdır".

**Mütəxəssis bildirib ki, evlərdə qaz detektorlarının quraşdırılması həyati vacibdir:** "Detektor sensorları metan, etan, propan kimi yanar qazların buxarlarını hiss etdikdə səs siqnalı verir. Siqnal eşidildiyi an ev sakinləri dərhal başa düşür ki, sızma var və təhlükəsizlik tədbirləri görürlər. Lakin Azərbaycanda detektorun quraşdırılması məcburi deyil. Bu, çox böyük boşluqdur. Dünyanın əksər inkişaf etmiş ölkələrində qaz detektoru məcburi şəkildə quraşdırılır və rəsmi qurumlar tərəfindən nəzarət edilir.

Zirzəmilər və yeraltı iş sahələri isə xüsusilə risklidir. Çünki küçələrin altında minlərlə kilometr qaz kəmərləri var və bu kəmərlərin istismar müddəti çox vaxt 30 ili keçir. 40-50 il nəzarətsiz qalmış kəmərlərdə sızma ehtimalı olduqca yüksəkdir. Yerin tərpənməsi və ya torpaq çökməsi də sızmanı artıran amildir. Bu səbəbdən zirzəmilərdə qazın olub-olmadığını yoxlayan detektorlar mütləq quraşdırılmalıdır.

Xatırlayırsınızsa, ötən il bir kitab mağazasında yeraltı kəmərdən sızan qazın yığılması nəticəsində güclü partlayış olmuşdu. Halbuki həmin obyektin özündə qaz sistemi yox idi. Sadəcə, mağazanın qapısını açıb işığı yandıran şəxs fərqində olmadan partlayışa səbəb olmuşdu. Bu cür hadisələr göstərir ki, nə nəzarət yetərlidir, nə də tələb olunan avadanlıqlar quraşdırılır".

Ekspert deyir ki, İran sobaları əslində təhlükəli deyil, sadəcə, standartlara uyğun quraşdırılmalıdır: "İranda qazın verilmə təzyiqi 178 milli metr su tutumuna bərabərdir. Azərbaycanda isə optimal təzyiq 130 milli metrdir, reallıqda isə 70-80 olur. Ölkəmizdə İran sobalarının quraşdırma normalarına riayət edilmir. "Azəriqaz" İran sobalarının Azərbaycanda satışını təşkil edənlərdən servis xidmətini də tələb etməlidir. Çünki bu sobaları üçüncü şəxslərin quraşdırma ixtiyarı yoxdur. Vətəndaşlar da nasos ustalarını çağırırlar. Onlar da bu sobaların avtomatikasını pozaraq qaz keçən yerini deşib böyüdürlər və yanma prosesi pozulur. Beləcə, karbon 4 oksid əvəzinə karbon 2 oskid çıxır. Tüstü bacaları, ventilyatorlar da işləmədiyi üçün zəhərli qaz otaqdan təmizlənmir və bundan da zəhərlənmə baş verir. Hər adam qaz quraşdıra bilməz axı. İran sobalarından istifadə qaydasına əməl edilmir, sonra da deyirlər ki, dəm qazı bizi boğdu. Sobalarda problem yoxdur, sadəcə olaraq, bizim şəbəkənin təzyiqinə uyğun olmalıdır. İrandan bu sobaları alanlar deməlidirlər ki, Azərbaycanda optimal təzyiq 130 milli metrdir, elə edən ki, soba bizdəki təzyiqlə işləyə bilsin. İndi satılan sobaların hamısı standartlara uyğundur. Sadəcə, bizim texniklər xamdır. Avtomatikası olan sobaların hamısı etibarlıdır. Bütün sobalar ildə iki dəfə - payız və yaz vaxtı yoxlanılmalıdır.

Qaz sobalarının bacası evin damından yarım metr hündürdə quraşdırılmalıdır. Bir kub metr qazın təmiz yanması üçün 9,5 kub metr hava lazımdır. Hava çatışmayanda, yaxud həddən artıq çox olanda proses pozulur və karbon 4 oksid əvəzinə karbon 2 oksid alınır. Karbon 4 oksid zəhərsiz, karbon 2 oksid isə zəhərlidir.

Tüstü bacaları, ventilyator uzun müddətdir yiyəsizdir və heç bir qurum tərəfindən tənzimlənmir. Tüstü bacaları işinə nəzarət edən bir qurum yaradılmalıdır. Bu qurumun peşəkar işçiləri və xüsusi avadanlıqları olmalıdır. Hazırda bu işə görə heç bir qurum məsuliyyət daşımır. Qazdan baş verən ölüm hallarının əksəriyyətinə bu səbəb olur. Qaz sızması əleyhinə detektorlar mütləq şəkildə hər bir evdə quraşdırılmalıdır. Detektor problem olanda qazın yolunu bağlayır və yanmamış karbohidrogen olanda reaksiya verərək siqnal çalır. Yeni tikilən binalara detektor paylanılır, köhnələrə isə "Azəriqaz" tələb edib məcburi şəkildə quraşdırılmalıdır. Bu detektorun qiyməti 10-12 manatdır. Axı insanlar niyə bu pulu öz canlarından üstün tuturlar?"

**Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**




# "Veteran pulu" ilə bağlı əhaliyə müjdə

**"2026-cı ildə dövlət büdcəsindən sosial istiqamətə ayrılan vəsaitlərin həcmində artımlar gözlənilir. Bu istiqamətdə 17,1 milyard manat vəsait ayrılacaq. Mövcud rəqəm isə büdcə xərclərinin 41 faizindən çoxu deməkdir".**

Bu sözləri BAKU.WS-ə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib.

Onun sözlərinə görə, qanunla müəyyənləşən artımlar Milli Məclisin və ya qanunverici orqanın səlahiyyətindədir:

"Qanunverici orqan qanunu dəyişir və ya onun qəbul edilməsi ilə məşğuldur. Pensiya kapitalının indeksləşdirilərək artırılması "Əmək pensiyaları haqqında" Qanunla tənzimlənir. Yəni bunlar qanunla tənzimlənən və qanunun tələbinə uyğun olaraq həyata keçirilən artımlardır.

Ehtiyac meyarı, o cümlədən yaşayış minimumu da qanunla tənzimlənir. "Veteran pulu" da daxil olmaqla, digər müavinətlərdəki artımlarla bağlı təkliflər var. Milli Məclisə təqdim edilən təkliflərdən biri ondan ibarətdir ki, bu məbləğin kommunal, nəqliyyat və digər xərclərdəki artıma bağlanılması daha məqsədəuyğun olardı. Bu məbləğ müəyyənləşəndən sonra məhz həmin kommunal xidmətlər, nəqliyyat və digər istiqamətlərdə artım faizi nə qədər olubsa, ona uyğun indeksləşdirmək olar.

Eyni zamanda gələcəkdə həmin istiqamətdə artımlar olursa, artıq ilin sonunda indeksləşdirilib və pensiyalarda olduğu kimi məhz "veteran pulu" və ya digər uyğun müavinətlərin artırılması həyata keçirilə bilər".



# Oliqarx oğlunun qalmaqalı yeni mərhələdə

**Azərbaycan Dövlət Neft Şirkətinin sabiq vitse-prezidenti Mikayıl İsmayılov və oğlu Orxan İsmayılzadə ilə bağlı qalmaqal yeni mərhələyə keçib. Musavat.com xəbər verir ki, Azərbaycan vətəndaşı Fidan Abbasova Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərova müraciət edərək, uzun illər davam edən hüquq mübarizəsini və məhkəmə çətinliklərini detallı şəkildə təqdim edib.**

Fidan Abbasova qeyd edir ki, o, 2012-2017-ci illər ərzində Orxan İsmayılzadə ilə faktiki ailə münasibətlərində yaşayıb. Bu münasibətdən onların Nil adlı qız övladı dünyaya gəlib.

"Hər kəs bizi ailə kimi tanıyırdı", - deyə o bildirir. Müraciətdə qeyd olunur ki, bu illər ərzində həm yaxın ətraf, həm də Orxan İsmayılzadənin atası Mikayıl İsmayılov onları ailə kimi qəbul edib, hətta Fidanı gəlini, Nil adlı qızcığazı isə nəvəsi kimi tanıdığını göstərən çoxsaylı foto və videogörüntülər mövcuddur.

Lakin Fidan Abbasovanın dediyinə görə, münasibətlər qısa müddət ərzində kəskin şəkildə pozulub. Səbəb isə daha bir övladın dünyaya gələcəyi xəbəri olub. Müraciətdə qeyd edilir ki, Mikayıl İsmayılov və Orxan İsmayılzadənin təzyiqi altında ikinci hamiləlik məcburi şəkildə sonlandırılıb. Bu hadisədən sonra tərəflər arasında münasibət tam qırılıb.

Fidan Abbasova qızının hüquqlarını qorumaq üçün Sabunçu Rayon Məhkəməsinə "atalığın müəyyən edilməsi" tələbi ilə müraciət edib. Lakin aldadılıb: "Məni notariusa aparıb aldatma yolu ilə iddiadan imtina ərizəsini imzalatdırdılar. Mən heç vaxt məhkəmədən imtina etməmişdim".

Bu epizodla bağlı Bakı Şəhər Baş Polis İdarəsində araşdırma aparıldığı bildirilir.

Məhkəmə prosesi yenidən başlanandan sonra Sabunçu Rayon Məhkəməsi 4 dəfə DNT ekspertizası təyin edib. Hər dəfə Orxan İsmayılzadə və vəkilinə rəsmi bildiriş göndərilsə də, Orxan ekspertizadan yayınaraq iştirak etməyib. Nəticədə məhkəmə Fidan Abbasovanın iddiasını təmin edib, Nilin atasının Orxan İsmayılzadə olması məhkəmə qərarı əsasında tanınıb, müvafiq olaraq azyaşlının sənədlərində atası qrafasında Orxan, soyadı qrafasında isə İsmayılzadə sözləri yazılıb.

Orxan İsmayılzadə qərardan apelyasiya şikayəti verib. Bakı Apelyasiya Məhkəməsi iş üzrə 5-ci ekspertizanın keçirilməsinə qərar verib. Lakin şikayətçi bildirir ki, bu dəfə də Orxan İsmayılzadə prosesə qatılmayıb və məhkəmə ikinci instansiyada da iddiaçı Fidan Abbasovanın xeyrinə qərar çıxarıb.

Fidan Abbasovanın müraciətində ən kəskin ittihamlardan biri Orxan İsmayılzadənin vəkili Şaiq Mirzəyevə yönəlib. O iddia edir ki, vəkil əvvəlcə ona iddiadan imtina etməsi üçün pul təklif edib, daha sonra isə açıq hədə-qorxu gəlib: "Dedi ki, Ali Məhkəmədə iş sizin xeyrinizə bitməyəcək".

Fidan Abbasovanın sözlərinə görə, elə belə də olub. Orxan İsmayılzadənin kasasiya şikayəti əsasında Ali Məhkəmə Bakı Apelyasiya Məhkəməsinin onun xeyrinə olan qərarını ləğv edib. Səbəb kimi guya ekspertiza barədə bildirişin cavabdeh tərəfə çatdırılmaması göstərilib.

**Fidan Abbasova isə bildirir ki, bütün bildirişlər iş materiallarında var, üstəlik, ekspertizanın birində onların iştirakı da olub:** "5 dəfə ekspertiza təyin edilib, 5-də də Orxan iştirak etməyib. Buna baxmayaraq, Ali Məhkəmə qərarı ləğv etdi. Bu qərarın arxasında nə dayanır - bu da qaranlıqdır".

Hazırda iş Bakı Apelyasiya Məhkəməsinin hakimi İkram Şirinovun icraatındadır.

**Şikayətçi qeyd edir ki, Mikayıl İsmayılov və Orxan İsmayılzadə prosesin bilərəkdən uzadılacağını açıq şəkildə etiraf edirlər:** "Deyirlər ki, məsuliyyətdən yayındırmaq üçün nə lazımdırsa edəcəklər".

Fidan Abbasova bildirir ki, bütün bu proses bir ana və azyaşlı uşağın hüquqlarını tapdayır və artıq dözümlü olmaq mümkün deyil.

O, Prezident Administrasiyasına ünvanladığı müraciətdə işin əsassız uzadılmasının dayandırılması; atalığın müəyyən edilməsi barədə işin qanuni, ədalətli araşdırılması; qızının hüquqlarının təmin edilməsini istəyir.

Yazıda adıçəkilən şəxsləri dinləməyə hazırıq.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

**Azərbaycanda ard-arda baş verən yanğın hadisələri cəmiyyəti ciddi şəkildə narahat etməyə başlayıb. Həm Bakıda, həm də müxtəlif bölgələrdə, şəhər və rayonlarda dəhşətli yanğınlar, tüstü boğulmaları, faciəvi ölümlər və yaralanmalarla müşayiət olunan hadisələr qeydə alınır. Hadisələrin intensivliyi və ağır nəticələri gündəmin əsas mövzusuna çevrilib.**



# Ölkəni bürüyən yanğınlar - Səhlənkarlıq, təxribat, yoxsa...

## Azərbaycanda ard-arda yanğın hadisələri faciəvi ölümlərə səbəb olub; ekspertlər Fövqəladə Hallar Nazirliyini dərin

Sonuncu belə hadisə Lökbatanda 4 nəfərin ölümünə səbəb oldu. Bundan əvvəl isə Yevlaxda ölümlə nəticələnən yanğın baş verib. Həmçinin Yasamaldakı yanğında 3 nəfər həyatını itirib.

Mütəxəssislər müxtəlif faktorları ön plana çəkirlər: elektrik xətlərinin köhnəlməsi və normativlərə uyğun olmayan şəkildə çəkilməsi, məişət texnikasının nasaz vəziyyətdə istifadəsi, qızdırıcı cihazların təhlükəsizlik qaydalarına əməl olunmadan işə salınması, binalarda yanğına qarşı sistemlərin, o cümlədən siqnalizasiya, tüstü detektorları, hidrantların ya ümumiyyətlə olmaması, ya da işlək olmaması, sıx və nizamsız tikinti səbəbindən təxliyə yollarının bağlanması, müasir yaşayış binalarında yanğın təhlükəsizliyinə dair standartlara əməl edilməməsi, qaz sızmaları, qayda pozuntuları və profilaktik baxışların vaxtında aparılmaması.

Bəs ard-arda baş verən dəhşətli yanğınların, partlayışların əsl səbəbi nədir? Yəni texniki nasazlıq, diqqətsizlik, yoxsa kimlərinsə məqsədli təxribatı? FHN bu məsələdə hansı məsuliyyəti daşıyır?

Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl mövzu ilə bağlı "Yeni Müsavat"a bunları bildirib: "Ard-arda hadisələr baş verəndə insanların belə düşünməsi təbiidir. Belə bir fikir formalaşır ki, bəlkə dövlətə təzyiq vasitəsidir. Amma bilin ki, bu, təzyiq vasitəsi deyil. Bu cür hallar terror hadisəsi sayılmır və dövlətə təxribat kimi qiymətləndirilməz. Sadəcə, havaların soyuması ilə elektrik cihazlarından istifadənin artması, cihazların yüklənməsi nəticəsində zəif nöqtələr üzə çıxır və hadisələr də ardıcıl baş verir. Burada kənar qüvvənin təsiri və təzyiq amili ilə əlaqə qurmaq doğru deyil.

Məsul qurumlar payız-qış mövsümünə hazırlıq ərəfəsində ciddi yoxlamalar aparmalı idilər. Bu, həm Fövqəladə Hallar Nazirliyinin, həm də enerji sektorunda fəaliyyət göstərən digər qurumların vəzifəsidir ki, riskli məntəqələri vaxtında yoxlasınlar. Yanğınlar Azərbaycan dövlətinə təzyiq vasitəsi kimi qiymətləndirilməməlidir".

Polisə Dəstək İctimai Birliyinin sədri, sabiq polis rəisi və kriminoloq Şəmsəddin Əliyevin də mövzu ilə bağlı fikirləri diqqət çəkir: "Həm paytaxtda, həm də bölgələrdə yanğınların artması ciddi narahatlıq yaradır. Bu qədər hadisənin ardıcıl baş verməsi təsadüfi sayıla bilməz. Bu prosesin arxasında hansı amillərin dayandığını araşdırmaq Fövqəladə Hallar Nazirliyinin birbaşa vəzifəsidir. Nəyə görə bu qədər yanğın baş verir və bunu gələcəkdə necə önləmək olar - bu suallar cavablandırılmalıdır".

Onun sözlərinə görə, Sovet dövrü ilə müqayisədə indi həm çoxmərtəbəli binalarda, həm də adi yaşayış evlərində yanğınların intensivliyi daha yüksəkdir. Bu isə artıq sadəcə bir texniki hadisə yox, dövlət təhlükəsizliyi baxımından araşdırılmalı sahədir. Şəmsəddin Əliyev Konstitusiyanın 12-ci maddəsini xatırladaraq vurğulayıb ki, dövlətin ali məqsədi vətəndaşların təhlükəsizliyi və layiqli yaşayışıdır və bütün dövlət qurumları bu məqsədə xidmət etməlidir.

Kriminoloq həmçinin Şəhərsalma və Arxitektura Komitəsinin üzərinə düşən öhdəlikləri də qeyd edib:

"Çoxmərtəbəli binalarda yanğının lokallaşdırılması çox çətindir. Bu cür binalarda hündürlük, sakinlərin təxliyəsi, yaşlılar və uşaqların təhlükəsiz şəkildə çıxarılması kimi problemlər yaranır. Üstəlik, bəzi binalarda qaz və elektrik xətləri illərdir standartlara uyğun deyil, divarlardan keçən köhnə xətlər həm qısaqapanma, həm də partlayış riski yaradır".

Onun fikrincə, FHN, DİN, Şəhərsalma Komitəsi və AMEA müvafiq qurumlarla birlikdə ekspertiza aparmalı, riskli məntəqələri müəyyən edib koordinasiyalı tədbirlər görməlidir. Yanğının söndürülməsi kifayət etmir - səbəblər araşdırılmalı və elmi əsaslı qabaqlayıcı tədbirlər hazırlanmalıdır.

Ekspert vətəndaş məsuliyyətinin də vacibliyini vurğulayıb:

"İnsanlar çox vaxt evdən çıxarkən qazı, işığı bağlı qoymur. Bu da riskləri artırır. Çoxmərtəbəli binalarda qəsdən yanğın ehtimal etmirəm, amma regionlarda bəzən hadisələr qəsdən törədilir. Sədərəkdə dəfələrlə belə hallar olub və orada qəsd ehtimalı böyükdür. Bəzi işbazlar ərazini ələ keçirmək üçün bu üsullara əl ata bilirlər".

Şəmsəddin Əliyev hesab edir ki, ardıcıl baş verən yanğınların hər biri ciddi araşdırılmalı, nəticələr isə ictimaiyyətə açıq şəkildə təqdim olunmalıdır.

❑ **Afaq MİRAYIQ,**
**"Yeni Müsavat"**

# Əbülfəs Qarayevin qızı məhkəməyə verilir - hansı cəza gözləyir?

**Əbülfəs Qarayevin qızı Suad Qarayeva məhkəməyə verilir. Bu barədə Modern.az saytı məlumat yayıb. Məlumatda qeyd olunur ki, "Məhsəti" filminə görə bir qrup ziyalı və mədəniyyət nümayəndələri filmin rejissoru Suad Qarayevanı məhkəməyə verməyə hazırlaşır. Qeyd edilir ki, hadisənin hüquqi, mənəvi və siyasi tərəfləri var və bu məsələ təkcə bir filmdən ibarət deyil.**





Xatırladaq ki, Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Bədii Şura filmin Bakı Beynəlxalq Film Festivalında nümayişinə rəsmi şəkildə qadağa qoyub. Qərar kəskin, sərt və birmənalı şəkildə verilib. Rəsmi açıqlamada bildirilir ki, film Məhsəti Gəncəvi kimi dünya şöhrətli bir şairəni aşağılayıcı, pejorativ, əxlaqsız qadın obrazında təqdim edir və bu, tarixi şəxsiyyətin heysiyyətinə açıq hörmətsizlikdir.

Məlum olduğu kimi, filmin müəllifi Suad Qarayeva keçmiş mədəniyyət naziri Əbülfəz Qarayevin qızıdır. Bu fakt ictimai narazılığı daha da artırıb və bir çoxları tərəfindən "mədəniyyət irsinin təhrifinin himayədarlıqla ört-basdır edilməsi cəhdi" kimi təqdim olunub.

Əgər məhkəmə baş tutarsa, qanunvericiliyə əsasən Əbülfəz Qarayevin qızını hansı cəza gözləyir?

Mövzu ilə bağlı hüquqşünas Ramil Süleymanov Musavat.com-a danışıb. Hüquqşünasın sözlərinə görə, Azərbaycan qanunvericiliyində ümumilikdə milli-mənəvi dəyər anlayışı ilə bağlı konkret hüquqi tənzimləmə mövcud deyil:

"İlk növbədə qanunvericilik milli-mənəvi dəyər anlayışının altına hansı kriteriyaların daxil olduğunu dəqiq müəyyənləşdirməlidir. Çünki milli-mənəvi dəyər anlayışı hüquqi kateqoriya deyil, daha çox sosial, mədəni və etik çərçivədə dəyərləndirilən nisbi bir məfhumdur. Bu məfhumun sərhədləri cəmiyyətə, hətta fərddən fərdə dəyişə bilər. Bu baxımdan, hesab edirəm ki, belə bir məsələ ilə bağlı məhkəmə prosesi keçirilsə belə, onun hüquqi müstəvidə real nəticəyə gətirəcəyi ehtimalı çox aşağıdır".

Xalq artisti, rejissor-aktyor Şeyx Əbdül Mahmudov isə Musavat.com-a açıqlamasında qeyd edib ki, bu cür hadisələrin qarşısını almağın yeganə yolu qanunvericilikdə ciddi dəyişikliklərə getmək, xüsusilə də mədəni irsin təhqiri və əxlaq pozuntuları ilə bağlı müddəaları sərtləşdirməkdir:

# Azərbaycanın ÜTT-yə qoşulacağı tarix - tək əngəl

## Fikrət Yusifov: "Manatın məzənnəsində bəzi təlatümlər baş verəcək, sonra...



**Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyü üçün əlavə addımlar müəyyən edilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov bu barədə sosial şəbəkədə yazıb.**

"Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü üzrə Hazırlıq İşləri Komissiyasının iclasında həmkarlarımla birlikdə bu günə qədər əldə edilən irəliləyişi nəzərdən keçirdik. Müzakirələrdə əsas diqqət rəqabətə davamlı yerli istehsalın gücləndirilməsinə, ixrac imkanlarının genişləndirilməsinə və əsas iqtisadi sektorların beynəlxalq ticarət tələblərinə uyğunlaşdırılmasına yönəldilib. Azərbaycanın Təşkilata üzvlüyü üçün danışıqlar prosesində atılacaq əlavə addımlar da müəyyən edilib", - deyə bəyanatda bildirilir.

**Qeyd edək ki, Ümumdünya Ticarət Təşkilatına üzv olmaqda əsas məqsədlər aşağıdakılardan ibarətdir:**

*Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək;*

*ÜTT-yə üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq;*

*Dünyanın əksər ölkələri ilə ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirmək;*

*Ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar, eləcə də inkişaf etmiş ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq;*

*ÜTT qaydalarını tətbiq etdikdən sonra daha çox birbaşa xarici sərmayə cəlb etmək;*

*ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etmək imkanını əldə etmək.*

Azərbaycan Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olma ilə bağlı 23 iyun 1997-ci il tarixində ÜTT Katibliyinə müraciət edib. Azərbaycan üzrə 16 iyul 1997-ci il tarixində yaradılmış İşçi Qrupa 42 dövlət daxildir. Azərbaycanın ÜTT-yə üzv olmasına hazırlıq işləri üzrə Komissiya 22 avqust 2003-cü il tarixində yaradılıb. Komissiyanın sədri AR Baş Nazirinin müavini Şahin Mustafayev, baş danışıqçı isə xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyevdir.

Azərbaycan Respublikasının ÜTT-yə daxil olması üzrə İşçi Qrupunun ilk iclası 2002-ci ilin 7 iyun tarixində, üzv-ölkələrlə ilk ikitərəfli danışıqlar isə həmin ilin 3-7 iyun tarixində Cenevrədə keçirilib. 2004-cü ildən etibarən danışıqlar prosesi mütəmadi xarakter almağa başlayıb. İşçi Qrupun sonuncu iclası 28 iyul 2017-ci il tarixində Cenevrə şəhərində baş tutub. İşçi Qrup çərçivəsində çoxtərəfli danışıqlar üzrə indiyədək 14 iclas keçirilib. İkitərəfli danışıqlar 22 dövlətlə aparılır. Bu günədək 5 ölkə (Türkiyə, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan və Qırğızıstan) ilə protokollar imzalanıb. Üzv olma prosesi çərçivəsində 24-28 iyun 2019-cu il tarixlərində Cenevrədə Cairns qrupunun bəzi üzvləri ilə kənd təsərrüfatı sahəsi üzrə ikitərəfli məsləhətləşmələr keçirilib. Üzv olma prosesi çərçivəsində sonuncu ikitərəfli danışıqlar 16-20 dekabr 2019-cu il tarixlərində İndoneziya, Tailand, Koreya ilə mallar, Aİ, Kanada ilə mallar və xidmətlər, Yaponiya ilə isə xidmətlər üzrə keçirilib.

**İqtisad elmləri doktoru, professor Fikrət Yusifov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan müstəqilliyinin ilk zamanlarından Ümumdünya Ticarət Təşkilatına üzv olmaq istiqamətində bu təşkilatla danışıqlar aparır. Professor diqqətə çatdırdı ki, indiyə qədər bu yolda hər hansı bir yaxınlaşma əldə edilməyib: "Müstəqilliyimizin ilk on illik ərzində Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmaq kimi istəyinin olmamasının səbəblərini anlamaq mümkün idi. Ölkə iqtisadiyyatında və maliyyə müstəvisində mövcud olan bəzi problemlər və ilk növbədə iqtisadiyyatın real sektorunun zəif inkişafı, bu təşkilata üzv olmağımızı əngəlləyən başlıca amillər idı. Lakin zamanla vəziyyət dəyişir, bu gün Azərbaycan iqtisadiyyatının 2/3 hissəsindən çoxu qeyri-neft sektorunun payına düşür. Düzdür, iqtisadiyyatın real sektorunun bu qədər böyük paya sahib olması hələ hər şey demək deyildir. Bu gün iqtisadiyyatın real sektoru ümumi iqtisadiyyatın bu qədər payına sahiblənsə də, bu sektordan ixracın xüsusi çəkisində demək olar ki, heç nə dəyişməyib. Yəni yenə də ixracımızın 90%-i neft və qazın payına düşür. Son 20 ildən artıq zaman kəsiyində biz idxalı əvəzləyəcək bəzi məhsulların - ilk növbədə tikinti materialları sırasına aid məhsulların istehsalı sahəsində yaxşı nəticələr əldə etmişik. Lakin təəssüf ki, bu gün istehlak mallarının və ərzaq məhsullarının böyük bir qismini idxal edirik, milli valyutamızın məzənnəsi isə Mərkəzi Bank tərəfindən tənzimlənir".

**Professor vurğuladı ki, Ümumdünya Ticarət Təşkilatına üzv olmağın əsas şərtlərindən biri milli valyutaların üzən məzənnəyə keçirilməsidir:** "Biz buna hazırıqmı? Əslində buna hazır olmaq barədə düşünmək lazın deyil, sadəcə bu addımı atmaq lazımdır. Düzdür, bu addım atıldıqdan sonra, ilkin mərhələdə manatın məzənnəsində bəzi təlatümlər baş verəcək, lakin bundan çəkinməməliyik. Bu sahədə son təcrübələrdən biri, Rusiya rublunun üzən məzənnəyə keçirilməsi oldu. İlkin mərhələdə müəyyən çətinliklər yaşansa da, sonradan insanlar da, müəssisələr də buna alışdılar. Əgər Rusiyanın Ukraynaya hərbi təcavüzü olmasaydı və bu səbəbdən rublun məzənnəsində ciddi problemlər yaşanmasaydı, Rusiya milli valyutasının üzən məzənnəyə keçməsini uğurlu addım kimi qiymətləndirmək mümkün olardı. Ümumdünya Ticarət Təşkilatına üzv olmaq daxili bazarda monopoliyanın kökünün kəsilməsini təmin edəcək. Bu isə öz növbəsində istehlak mallarının və ərzaq məhsullarının qiymətlərində ciddi enmələrə səbəb olacaq. Biz dünya iqtisadiyyatının və maliyyə müstəvisinin bir parçası olaraq Ümumdünya Ticarət Təşkilatına üzv olmalıyıq, bunun alternativi yoxdur".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

**Elan:**

**Rəhimli Emil Əfqan oğlunun adına olan hərbi bilet itdiyi üçüt etibarsız sayılır.**



Fazil Mustafa

# Brüsselin Bakıya qarşı bitməyən həyasızlığı - reaksiya

## Terrorçu Melkonyanın adını daşıyan lisey Avropa İttifaqının forumuna qoşulub; **deputat:** "Bu, həm diplomatik, həm ideoloji bir savaşdır"

**Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasa, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qronoya və İttifaqın ölkəmizdəki nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziçə müraciət ünvanlayıblar. Müraciətdə erməni terrorçu Monte Melkonyanın adını daşıyan Ermənistan Hərbi-idman liseyinin Avropa İttifaqının Hərbi Orta Məktəblər Forumuna qoşulması ilə bağlı xəbərin Azərbaycan ictimaiyyətində narazılıq doğurduğu vurğulanıb.**

Qeyd olunub ki, Cenevrədə BMT Ofisinin qarşısında səssiz aksiya keçirən və onilliklər ərzində yaşadıqları faciəyə dünyanın diqqət ayırmağa başladığını düşünən Qarabağın itkin ailələrinin terrorçu qrup hesab edilən bir qurumun üzvü olan və hərbi cinayətkar sayılan Monte Melkonyanın adını daşıyan məktəbin Aİ-yə bağlı bir foruma qəbul edilməsindən dərindən məyus olublar.

Müraciətdə Monte Melkonyanın 1990-cı illərdə Azərbaycanın Kəlbəcər rayonunda son dərəcə amansız hərbi əməliyyatlarda iştirak etməsinə, ağır cinayətlər törətməsinə baxmayaraq, Ermənistanda hələ də açıq şəkildə qəhrəmanlaşdırıldığı diqqətə çatdırılıb. Onun bu cinayətləri ötən əsrin 70-80-ci illərində Avropanın bir sıra ölkələrində türk diplomatlara və onların ailə üzvlərinə qarşı terror hücumları həyata keçirən ASALA terror təşkilatı ilə əlaqələrindən sonra törətməsi xüsusi vurğulanaraq, bu faktların Melkonyanın uzun müddət militant fəaliyyətlərdə iştirakının bariz göstəricisi olduğu bildirilib.

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri Melkonyanın adını daşıyan hərbi-idman liseyinin forumun üzvlük statusunun verilməsinə dair memorandumun yaxın günlərdə imzalanacağının gözlənildiyini vurğulayıblar. Bəzi məsuliyyətsiz Aİ rəsmilərinin bu terrorçunun Azərbaycan xalqı üçün nə ifadə etdiyini bilmədikləri təqdirdə onları Melkonyanın Kəlbəcər rayonunun işğalı dövründə çəkilmiş videogörüntülərinə baxmağa çağırıblar.

Melkonyanın adını daşıyan bir qurum Aİ tərəfindən dəstəklənən bir platformada necə təşviq oluna bilər? Avropa Komissiyası Melkonyan kimi terrorçunu necə və nə üçün qəhrəmanlaşdırması barədə izahat verəcəkmi?

Mövzu ilə bağlı **millət vəkili Fazil Mustafa** "Yeni Müsavat"a danışıb. O qeyd edib ki, bu kimi məsələlərdə Azərbaycan öz mövqeyini qəti şəkildə ortaya qoymalı, həm də milli xarakterini nümayiş etdirməlidir: "Çünki terrorçunun adına qoyulmuş müxtəlif obyektlərin, şirkətlərin və ya təşkilatların Avropa məkanında sadə və formal prosedurlarla müəyyən üstünlüklər qazanması, üzv qəbul edilmələri və legitimlik əldə etmələri tamamilə yolverilməzdir. Ona görə də bu kimi məsələlərdə səylərimizi davam etdirməli, mövqeyimizi ardıcıl şəkildə daha da gücləndirməliyik.

İndi bu məsələ bizim üçün həyati əhəmiyyət kəsb etmir, çünki Melkonyanın ideyalarını məhv etmiş, onun təbliğ etdiyi destruktiv ideologiyanı darmadağın edən qələbəni artıq qazanmışıq. Lakin buna baxmayaraq, bu, həm diplomatik, həm ideoloji bir savaşdır və bu savaşın nəticələrini, doğurduğu mesajları, təhlükələri təbliğat baxımından da Avropa məkanında müzakirəyə çıxarmalıyıq.

Çünki terrorçunun bu cür stimullaşdırılması, onun adına struktur və qurumların formalaşdırılması gələcəkdə daha böyük təhlükələrin yaranacağına şərait yarada bilər. Bu isə həm regiona, həm də Avropanın özünə ciddi təhdidlər doğura biləcək bir prosesdir".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 223 (8833) 9 dekabr 2025

# Azərbaycan nüfuzlu agentliklə əməkdaşlığı niyə dayandırdı...

## Ekspert Maliyyə Nazirliyinin qərarını şərh etdi

**Azərbaycanın Maliyyə Nazirliyi “S&P Global Ratings” agentliyi ilə müqavilə əsasında əməkdaşlığı dayandırıb. Nazirliyin yaydığı məlumata görə, Azərbaycan beynəlxalq kapital bazarlarına çıxışın asanlaşdırılması, borclanma prosedurlarının tənzimlənməsi, beynəlxalq maliyyə dairələri tərəfindən ölkəmizə etimadın daha da gücləndirilməsi məqsədilə 2000-ci ildən etibarən beynəlxalq kredit reytinq agentlikləri ilə əməkdaşlıq edir: “Bu dövr ərzində aparıcı üç beynəlxalq reytinq agentliyi ("Fitch", “S&P Global Ratings”, “Moody’s”) ilə əməkdaşlıq həyata keçirilib, həm rəsmi müqavilə çərçivəsində ödənişli əsaslarla, həm də müqavilə öhdəlikləri olmadan (“unsolicited rating”) agentliklər tərəfindən ölkəmizin suveren kredit reytinqi qiymətləndirilib".**




Nazirlik bildirir ki, beynəlxalq təcrübədə bu üç aparıcı beynəlxalq reytinq agentliyindən ikisi tərəfindən qiymətləndirmə geniş tətbiq edilən institusional təcrübədir. Bu təcrübədən çıxış edərək, Azərbaycan son 5 ildə ölkənin suveren kredit reytinqinin qiymətləndirilməsini iki agentlik (“Fitch”, “S&P Global Ratings”) vasitəsilə rəsmi müqavilə üzrə ödənişli əsaslarla, bir agentliklə isə (“Moody’s”) müqavilə öhdəlikləri olmadan, yəni Azərbaycan tərəfindən hər hansı ödəniş edilmədən həyata keçirib: “Bu dövr ərzində Azərbaycan iqtisadiyyatında müşahidə olunan fundamental və davamlı müsbət meyllər fonunda ölkənin kredit reytinqi artıb və 2024-cü ildə "Fitch Ratings", 2025-ci ildə isə “Moody’s Ratings” agentliyi tərəfindən ölkəmizin suveren kredit reytinqi artırılaraq investisiya dərəcəsinə yüksəldilib. Belə ki, agentliklər tərəfindən “BBB-” və “Baa3” səviyyəsinə qaldırılan suveren reytinqimiz üzrə növbəti dövr üçün proqnoz da müvafiq olaraq "stabil" və “müsbət” olaraq qiymətləndirilib. Hər iki reytinq agentliyi Azərbaycanın güclü fiskal və xarici mövqeyə malik olmasını, xarici valyuta aktivlərinin əhəmiyyətli artmasını, aşağı dövlət borcu və müsbət büdcə göstəricilərinin iqtisadiyyatın xarici şoklara qarşı dayanıqlılığını təmin etdiyini vurğulayıb.

Reytinq agentlikləri ilə əməkdaşlıq üzrə qeyd olunan beynəlxalq təcrübəyə uyğun olaraq, növbəti dövrdə də rəsmi müqavilə üzrə ödənişli əsaslarla yalnız iki agentliklə əməkdaşlığın davam etdirilməsi nəzərdə tutulub. Əldə olunmuş uğurlar və qarşılıqlı faydalı, effektiv əməkdaşlıq nəzərə alınaraq “Fitch Ratings” və “Moody’s Ratings” agentlikləri ilə imzalanan müqavilələr çərçivəsində ödənişli əsaslarla institusional əməkdaşlığın həyata keçirilməsi təmin olunub".

Maliyyə Nazirliyi hesab edir ki, iki agentliyin qiymətləndirilməsi beynəlxalq kapital bazarlarına çıxış və borclanma prosedurlarının tənzimlənməsi üçün kifayət edir. Buna görə də “S&P Global Ratings” agentliyi ilə əməkdaşlığın müqavilə öhdəliklərindən kənar davam etdirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, “S&P Global Ratings” bir gün əvvəl Azərbaycanla bağlı reytinq qərarını açıqlayıb. Qərara əsasən Azərbaycanın uzun və qısa müddətli xarici və yerli valyutada suveren kredit reytinqləri “BB+/B” səviyyəsində təsdiqlənib və ölkə üzrə proqnoz “sabit”dən “müsbət”ə yüksəldilib. Bununla belə, agentlik elan edib ki, daha sonra reytinqlər emitentin - Azərbaycan hökumətinin - müraciəti əsasında geri götürülüb.

Agentliyin məlumatına əsasən, proqnozun yaxşılaşdırılması Azərbaycanla Ermənistan arasında gərginliyin azalması, davamlı deskalasiya, sülh razılaşmasına doğru irəliləyiş və hər iki ölkədə 2026-cı il büdcəsində müdafiə xərclərinin azaldılması ilə bağlı gözləntiləri əks etdirib. "S&P" qeyd edir ki, bu amillər münaqişə risklərini azaldır və davamlı olduğu halda investor etimadını artıraraq ortamüddətli iqtisadi artımı dəstəkləyə bilər.

Agentliyə görə, Azərbaycanda iqtisadi artım 2029-cu ilə kimi 2 faiz ətrafında olacaq. Ölkənin real iqtisadi artımı yaxın iki ildə əvvəlki dövrlərlə müqayisədə daha zəif olacaq: 2024-cü ildə 4,1 faiz təşkil edən real iqtisadi artımın 2025-ci ildə 1,8 faizə, 2026-cı ildə isə 1,7 faizə enəcəyi, 2027-ci ildə 2,0 faizə, 2028-ci ildə isə 2,1 faizə qədər tədricən yüksələcəyi gözlənilir.

**"S&P" bunu neft sektorunun iqtisadiyyata töhfəsinin getdikcə azalması ilə izah edir:** “2025-ci ilin ilk 10 ayında neft hasilatı 4,6 faiz azalaraq gündəlik təxminən 556 min barel səviyyəsinə düşüb. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 27 min barel azalma deməkdir. Təbii qaz hasilatı 1,7 faiz artaraq neft ekvivalenti ilə gündə təxminən 849 min barrel olub (cəmi 14 min barel ekvivalent artım).

Bu isə göstərir ki, qaz hasilatındakı mülayim artım neft hasilatındakı daha kəskin azalmanı kompensasiya etmir. Nəticə etibarilə, ümumi karbohidrogen fəaliyyəti mənfi zonada qalır. Bu tendensiyaların davam edəcəyi gözlənilir. “Azəri-Çıraq-Günəşli” (AÇG) yataq kompleksinin istismarı davam etdikcə, 2026-cı ildə neft hasilatının bir qədər də azalması ehtimal olunur.

Xarici operatorların əlavə sərmayələri azalma tempini zəiflətməkdədir, lakin prosesi tam dayandırmır. Qaz hasilatının isə ortamüddətli pik səviyyəsinə yaxın olduğu və onilliyin sonuna qədər əlavə həcmlərin məhdud olacağı üçün ümumilikdə sabit qalacağı proqnozlaşdırılır".

Qeyd edilib ki, neft sektorunun artıma töhfəsi zəifləsə də, iqtisadiyyatda diversifikasiya tədricən irəliləyir. Bu səbəbdən "S&P" real ÜDM artımının 2026-cı ildə təxminən 1,7 faiz, növbəti bir neçə ildə isə nisbətən zəif olacağını gözləyir: “Uzun müddətdə Abşeron yatağının növbəti mərhələsi, AÇG-nin dərin qaz layihəsi, eləcə də Ümid, Babək və Qarabağ yataqlarının işlənməsi kimi bir neçə upstream layihə qaz hasilatını dəstəkləyə bilər, lakin onların hamısı hələ ilkin planlaşdırma mərhələsindədir və reallaşması illər tələb edəcək”.

**"S&P"nin proqnozuna əsasən, Azərbaycanın cari əməliyyatlar balansının profisiti 2025-2028-ci illərdə orta hesabla ÜDM-in 3 faizi səviyyəsində qalacaq:** “2028-ci ildə karbohidrogen hasilatının sabitləşməsi və idxal tələbinin investisiya ehtiyacları ilə birlikdə artması fonunda kiçik bir defisitin formalaşması mümkündür”.

Agentlik ekspertlərinə görə, ortamüddətli dövrdə manatın dollar qarşısında məzənnəsi dəyişməyəcək: “Azərbaycan manatın ABŞ dollarına qarşı məzənnəsini 1,7 səviyyəsində sabit saxlanmasını davam etdirəcək”.

Bildirilir ki, Mərkəzi Bankın mütəmadi valyuta intervensiyaları və güclü ehtiyat mövqeyi bu prosesi dəstəkləyir. 2025-ci il 31 oktyabr tarixinə Mərkəzi Bankın valyuta ehtiyatları 11,4 mlrd dollara yüksəlib (təxminən dörd aylıq cari ödənişlərə bərabərdir) və bu, proqnozlaşdırılan neft qiymətləri fonunda əhəmiyyətli bufer yaradır. Bununla belə, iqtisadiyyatın karbohidrogen gəlirlərindən yüksək asılılığı səbəbindən uzunmüddətli zəif neft qiymətləri halında ehtiyatların qorunması üçün məzənnənin idarəolunan dəyişikliyi istisna edilmir.

**Mövcud məzənnə rejimi inflyasiyanı sabitləşdirir, lakin Mərkəzi Bankın monetar siyasət imkanlarını məhdudlaşdırır:** “Pandemiyadan əvvəl 55 faiz olan depozit dollarlaşması hazırda 29 faizə düşüb, bu da manat depozitlərinə daha yüksək faizlər və məzənnə sabitliyi ilə izah olunur. Yenə də dollarlaşma etibara həssas olaraq qalır və valyuta təzyiqi yaranarsa, əhalinin xarici valyutaya sürətli keçidi mümkündür”.

Qurum habelə 2025-2028-ci illərdə Azərbaycanda orta illik inflyasiyanın azalacağını proqnozlaşdırır. Proqnozlara əsasən, Azərbaycanda orta illik inflyasiya 2024-cü ildəki 2,2 faizdən 2025-ci ildə 5,7 faizə qədər artacaq, lakin 2026-cı ildə 4,7 faizə, 2027-ci ildə 4,4 faizə və 2028-ci ildə 4 faizə qədər azalacaq.

**Azərbaycanın “S&P Global Ratings”lə əməkdaşlığı dayandırmasını şərh edən iqtisadçı-ekspert Rəşad Həsənovun “Yeni Müsavat”a dediyinə görə, son on ildə reytinq agentliklərinin fəaliyyəti ilə bağlı kifayət qədər həm manipulyativ fikirlər, həm də bəzən haqlı iradlar səsləndirilir:** “Burada digər bir formalaşmaqda olan tendensiya ondan ibarətdir ki, hökumətlər bu və ya digər formada reytinq agentliklərinin qəbul etdikləri qərarlara təsir göstərmək istəyirlər. Müşahidələr göstərir ki, hər region ölkələri, həm məsələn, Türkiyə kimi böyük dövlətlər, həm digər regionların ölkələri onların reytinqlərinə dair neqativ qərarlar qəbul edən agentliklərə qarşı kəskin etirazlar qəbul edir, onları tənqid edirlər. Nə vaxt ki, qərarlar hökumətlərin istəklərinə uyğun, yəni pozitiv olur, onda həmin qərarı həm yerli, həm də beynəlxalq arenada xüsusi təqdim edirlər.

Eyni zamanda qeyd etməyə dəyər ki, bazarlar uğrunda rəqabət fonunda bir sıra agentliklər də öz obyektiv mövqelərini qoruyub saxlaya bilmədilər: reytinq qərarları bir sıra hallarda siyasi və subyektiv çalarlarla müşayiət olunduğuna görə onların müəyyən reputasiya itkisinə gətirib çıxardı.

Amma onu da qeyd etmək lazımdır ki, "Fitch", "Moody’s", “S&P Global Ratings” kimi agentliklər dünyada təxminən eyni reputasiyaya malikdilər. Düşünürəm ki, hər hansı agentlik reytinq yüksəldilməsi qərarını gecikdirirsə, yaxud vermirsə, onunla əməkdaşlığın dayandırılması heç də yaxşı təcrübə, arzuolunan hal deyil. Bu addım hökumətin agentliklərə münasibətdə manipulyasiyası hesab oluna bilər. Belə addımlar gələcəkdə beynəlxalq agentliklərin qərarları, rəyləri ilə reallıq arasında fərqlərin yaranmasına gətirib çıxara bilər. Bu isə kifayət qədər mənfi tendensiyadır. Çünki belə agentliklərin obyektiv qiymətləndirmələri bir çox məqamlarda hökumətlərin ciddi səhvləri vaxtında görərək, onları aradan qaldırmaları üçün əlverişli mühit yaradır. Obyektiv olmayan qiymətləndirmə isə problemləri vaxtında görmək imkanını istisna edir. Ümid edirəm ki, Azərbaycanın "S&P Global Ratings" ilə rəsmi müqavilə əsasında əməkdaşlığı dayandırması məhz reytinqdə yaxşılaşma olmaması, bunun gec olması ilə bağlı deyil".

**Ekspertə görə, “S&P Global Ratings”in Moody’s-lə əvəz olunması, “S&P Global Ratings” ilə rəsmi müqavilə ilə əməkdaşlıq edilməməsi ciddi birbaşa risklər formalaşdırmır:** “Burada indiki halda ciddi birbaşa risklər görünmür. Amma bayaq qeyd etdiyim dolayı risklər həmişə var və onlar arzuolunmayan nəticələrə səbəb ola bilər”.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

# "Ayaks"ın Bakıda "holland sindromu"

## Sabah "Qarabağ" 10-cu xalını qazana biləcəkmi?

**Sabah Azərbaycan çempionu "Qarabağ" Çempionlar Liqasının Liqa Mərhələsində növbəti uğurunu qazanmaq üçün ən vacib oyunlarından birini keçirəcək. Rəqib Hollandiyanın ad-sanlı klublarından sayılan "Ayaks"dır. Tofiq Bəhramov adına Respublika Stadionunda "Qarabağ" - "Ayaks" görüşü saat 21:45-də başlayacaq.**

Bu oyun hazırda 7 xalla 35 klub arasında 15-ci sırada yern alan "Köhlən atlar" üçün ilk 24-lüyü təmin etmək baxımından həyatı vacib oyun kimi də qəbul olunur. Heç-heçə Ağdam klubunu qane edə bilməz, yalnız qələbə ölkə futbolunun ən böyük tarixi uğurunu qazanmaq üçün yetərlidir.

Doğrudur, sırada hələ "Ayaks"dan sonra daha iki oyunumuz var. Bunlar alman klubu "Ayntraxt Frankfurt" və "Liverpul"la keçirəcəyimiz oyunlardır. Almanları Bakıda qəbul edəcəyik, ingilislərlə isə səfərdə oynayacağıq. Deməli, bu işi sabaha qoymaz olmaz...

"Ayaks" Liqa Mərhələsində mübarizə aparan 36 klub sırasında 0 xalla sonuncu yerdə qərarlaşıb. Demək olar ki, hollandların şansları yoxdur. Bundan yararlanmaq üçün Qurban Qurbanovun yetirmələri hər şeyi etməlidir. Sırada qalan oyunlardan "Liverpul"dan səfərdə xal almaq şanslarını etiraf edək ki, yoxdur. "Frankfurt" oyunu isə finala bərabər oyun olacaq, hər iki tərəf üçün. Çünki almanların da ilk 24-lüyə düşmək şansları ağdamlılardan elə də az deyil.

Bir sözlə, Avropada bütün oyunlarını Azərbaycan futbolu adına yeni yazılacaq tarixə çevirən "Qarabağ" doğma azarkeşləri önündə bu şansı əldən buraxmamalıdır. Şaxtalı-soyuq havada stadion tam olaraq dolacaq. Artıq biletlərin tükənməsi bunu deməyə əsas verir. Sözün həqiqi mənasında əsl futbol axşamı azarkeşləri gözləyir.




**Tanınmış idman yazarı Natiq Muxtarlı** "Yeni Müsavat"a bildirdi ki, rəqibin xalı olmasa da, asan təslim olmayacaq, əksinə, Bakıda meydana qələbə üçün çıxacaq: ""Ayaks"ın pley-offa adlamaq üçün heç nəzəri şansı da yoxdur. Ekspertlər artıq bununla bağlı hesablama aparıblar və məlum olub ki, qrup mərhələsini adlamaq üçün minimum 10 xal lazım olacaq. "Ayaks" xalı olmayan yeganə komandadır və ekspertlərə görə, son 3 oyunda qalib gəlsə belə, artıq şansını itirib. Ancaq bu o demək deyil ki, "Ayaks"la oyun "Qarabağ" üçün asan olacaq. Yox, əksinə, çətin oyun gözləyirəm.

Birincisi, "Ayaks"ın üzərində artıq heç bir təzyiq yoxdur, Bakıda çox rahat olacaqlar. Amma "Qarabağ" böyük təzyiq altındadır. "Ayaks"dan fərqli olaraq "Qarabağ"ın pley-offa adlamaq üçün böyük şansı var. Ancaq Niderland nəhənginə məğlubiyyət işi çətinləşdirə bilər.

Ona görə də Qurban Qurbanovun komandası Bakıda "Ayaks"a qalib gəlməyi hədəfləyib. Elə azarkeşlər də bunu tələb edirlər. Bu da əlavə təzyiq yaradır.

İkincisi, "Ayaks" şansını itirsə də, ad-sanına görə Bakıda ləyaqətlə mübarizə aparacaq. Belə komandalar heç vaxt heç bir oyuna barmaqarası baxmırlar.

Ola bilsin ki, "Ayaks"ın baş məşqçisi rotasiyaya əl atsın. Çünki indi komanda üçün əsas hədəf Niderland çempionatıdır. Amma yadda saxlamaq lazımdır ki, "Ayaks" kimi komandalarda əsas və əvəzedici heyət olmur.

Böyük komandaların ehtiyatdan meydana çıxanları da oyun keyfiyyətini artırmağa qadirdirlər. Rotasiya olsa belə, meydana çıxanlar yüksək səviyyəli futbolçular olacaq.

"Qarabağ" necə oynamalıdır? Bütün hallarda təşvişə düşməyə ehtiyac yoxdur. Çalışıb öz oyun sxemini diktə etmək lazımdır. Topa nəzarət edərək rəqibə təzyiq göstərməli, boşluq axtarmalı, "Ayaks"ın futbolçularını səhvə məcbur etməliyik. Və bununla yanaşı, müdafiədə diqqətli olmalıyıq. Heç şübhəsiz ki, qol imkanları olacaq. Mütləq olacaq.

Bax onlardan maksimum yararlana bilsə, "Qarabağ"ın "Ayaks"a qalib gəlməsi reallaşacaq. Bu qələbə böyük ölçüdə "Qarabağ"ın pley-offa yolunu açacaq".

**İdman mütəxəssisi hesab edir ki, "Qarabağ" "Çelsi" ilə Bakıda sərf etdiyi gücdən daha artığını "Ayaks" qarşısında etməlidir:** " Məsələ niyə indi həll olunmalıdır? Çünki qarşıda iki oyun var ki, onlar artıq gələn il, 2026-cı ilin yanvarında keçiriləcək. Növbəti iki rəqib "Ayntraxt" və "Liverpul"dur. Hazırda hər ikisi yaxşı günlərini yaşamır. Ancaq yanvarda bel olmayacaq. Söhbət "böyük beşlik" ölkələrinin komandalarından gedir. Onlar gələn yanvara qədər krizisdən çıxacaqlar. Ona görə də "Qarabağ"ın da, azarkeşlərin də rahat olması üçün "Ayaks"dan 3 xal almaq lazımdır. Amma dediyim kimi, "Ayaks" 3 xalı bizə hədiyyə etməyəcək. Bəlkə də bu oyunda "Çelsi" ilə qarşılaşmada sərf edilən də artıq güc sərf etmək lazım olacaq. Minimum səhv, maksimum bitiricilik, səbir və əzmkarlıq - "Ayaks"la oyunda qələbə bu amillərdən asılı olacaq. "Qarabağ" böyük təcrübəyə sahibdir və güman edirəm ki, bu təzyiqin də öhdəsindən gələ biləcək".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

# Uşaq doğulan kimi hesabına 1000 dollar... - yeni layihə

## Vüsalə Əhmədova: "Azərbaycanda hər uşağa investisiya hesabı açılması mümkündür, amma..."

**ABŞ-də 2025-2028-ci illərdə doğulan uşaqlar üçün xüsusi investisiya hesabları açılacaq. Musavat.com xəbər verir ki, layihə barədə açıqlama verən Donald Tramp bildirib ki, bu təşəbbüs aztəminatlı ailələrdən olan uşaqların 18 yaşına qədər öz vəsaitlərini toplamasına şərait yaradacaq.**



ABŞ Maliyyə Nazirliyi hər yeni doğulan uşağın hesabına 1000 dollar köçürəcək. Proqrama qoşulmaq üçün valideynlər və ya qəyyumlar müraciət etməlidirlər. Hesabdakı vəsaitlər fondların qiymətli kağızlarına yönləndiriləcək, əlavə ödənişləri isə ailə üzvləri və xeyriyyə təşkilatları edə biləcək.

Yeni sistem xüsusilə orta gəlirdən aşağı bölgələrə şamil olunur: proqramdan yararlana bilmək üçün uşağın yaşadığı ərazidə ev təsərrüfatlarının median gəliri ildə 150 min dollardan çox olmamalıdır. Bu göstərici ABŞ-dəki uşaqların təxminən 80 faizini əhatə edir.

Azərbaycanda bu sahədə vəziyyət necədir? Oxşar layihələr bizdə mümkünmü?

**İqtisadçı-alim Vüsalə Əhmədova** mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:"Hazırda Donald Trampın ABŞ-də planladığı "uşaqlar üçün investisiya hesabı" təşəbbüsü layihəsi mənim illər əvvəl təklif etdiyim bir layihənin bənzəridir. Qeyd etmişdim ki, ilk öncə ölkədəki 1-6 yaş qrupundakı uşaqlara aylıq 80-100 manat məbləğində müavinət verilsin. Bu qrupdakı uşaqların cəmi sayının təqribən 940.400 nəfər təşkil etdiyini nəzərə alsaq, hər bir uşaq üçün aylıq 80 manat məbləğində müavinət verilərsə, bu, illik 902.784.000 manat təşkil edəcək, hansı ki, bu məbləğ büdcə üçün heç bir yük təşkil etməz. Digər 7-17 yaş qrupları üzrə uşaqlar üçün isə 7 yaşı tamam olan hər bir uşaq üçün bank hesabı açılsın, aylıq müavinətlər bank hesabına toplansın və uşağın 18 yaşı tamam olduqda toplanan vəsait onun istifadəsinə verilsin. Həmin müddət ərzində isə bank vəsaiti iqtisadiyyata investisiya edə bilər. Lakin bu təklifimi aidiyyəti qurumlar nəzərə almadı".

İqtisadçı əlavə edib ki, hazırda Azərbaycanda mövcud olan sosial yardım sistemi çox məhdud kateqoriyaları əhatə edir və adından da göründüyü kimi, yardım formasındadır: "Amma hər bir uşağa yönəldilmiş "investisiya sistemi" mövcud deyil. Uzunmüddətli investisiya hesabı sisteminin başladılması üçün qanunvericilikdə dəyişiklik, maliyyə planlaması, ictimai debat və ən önəmlisi siyasi iradə lazımdır. Halbuki neft gəlirləri, sosial rifah siyasəti və bank-maliyyə sistemi bu cür proqramı tam dəstəkləyə bilər. Heç kimə sirr deyil ki, Azərbaycanda gəlir bərabərsizliyi mövcuddur və aztəminatlı ailələrdə doğulan uşaqların start imkanları zəif olur və ya heç olmur. Hər bir uşaq üçün 18 yaşına qədər yığılan vəsait, onun universitet təhsil haqqını ödəmək və ya kurslar, sertifikatlar və peşə təhsili almaq üçün istifadə edilə bilər. Məlumdur ki, ölkəmizdə ali məktəblərə qəbulun 69%-i ödənişli əsaslarla aparılır. Həmçinin bu məbləğlə kiçik biznesə başlamaq, texnologiya layihəsi yaratmaq, ilkin avadanlıq almaq olar, hansı ki, karyeraya borcsuz başlamaq imkanı yaradar. Bu, "yardım" deyil, "gələcək üçün sərmayə" modelidir, himayəyə ehtiyacı olan qruplar üçün davamlı inkişaf imkanıdır. Ailələr bilsələr ki, uşaqlarının gələcəyi üçün "dövlət dəstək paketi" var, sosial narazılıq azalar, gənclərin xaricə iqtisadi səbəblərlə köç etməsinin qarşısı alınar, ailələrin uşaq sahibi olmaq motivasiyası artar. Azərbaycan neft gəlirləri ilə edən ölkədir, "Child Development Account" və ya "Child Trust Fund" kimi modellər, bu gəlirlərin bir hissəsinin birbaşa gələcək nəsillərə investisiya formasında ötürülməsinə imkan verər".

❑ **Afaq MİRAYİQ,
"Yeni Müsavat"**




# İşçidən maaş kartı istədi, iş prokurorluğa getdi

**13 il Gigiyena və Epidemiologiya Mərkəzinin Şabran rayon şöbəsinin dezinfeksiya-sanitar xidmətində çalışan Vüsalə Nadir qızı Balayeva Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə şikayət məktubu ilə müraciət edib. Vüsalə Balayeva müdir əvəzi Asif Nəsibovun ona qarşı qanunsuz əməllərinin araşdırılmasını, hüquqi qiymət verilməsini istəyir.**

Şikayətində yazır ki, əlində xəstəliyi ilə bağlı işə çıxmadığı haqda arayışa məhəl qoymayan Asif Nəsibov tam qanunsuz olaraq onu işdən azad edib. Halbuki Vüsalə Balayeva xəstəliyi ilə bağlı həkimdə olub, müvafiq rəsmiləşdirmə aparılıb, ona bülleten açılıb.

Musavat.com xəbər verir ki, Vüsalə Balayeva bülletendə ola-ola işdən çıxarılmazdan əvvəl şöbənin müdiri Asif Nəsibov ondan maaş kartını tələb edib, o, qanunsuz tələbi yerinə yetirməkdən imtina etdikdən sonra təzyiqlərlə üzləşib.

Vüsalə Balayeva bildirir ki, səhhətində ciddi problemlər yarandığı üçün həkimə müraciət edib, həkim də ona rəsmi xəstəlik vərəqi (bülleten - red.) açıb. O da mərkəzə yazılı şəkildə izahat təqdim edib: "Xəstə olduğumu yazdım, bülletenə çıxacağımı bildirdim. Müdir Asif müəllim izahatı qəbul etdi. Amma bülletenlə evdə olduğum gün məni işdən çıxarıb. Həkimə də irad bildirib ki, niyə mənə bülleten açıb. Daha sonra rəhbərlik sistemdən bülleten məlumatlarımı silib!"

**Vüsalə Balayeva deyir ki, onu Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndi ilə işdən azad ediblər:** "Bütün bunlar maaş kartımı vermədiyim üçün edildi. Mən öz işimi vicdanla yerinə yetirmişəm, məni qəsdən bu maddə ilə işdən çıxarıb ki, başqa işə düzələ bilməyim. Mən subay qadınam, yaşım da az deyil. Atam rəhmətə gedib, beldən iflic anam var. Evdə anama tək baxan mənəm. 13 il işlədiyim stansiyadan sırf qanunsuz tələbi yerinə yetirmədiyimə görə işdən çıxarıblar".

**Vüsalə Balayeva bildirir ki, şöbə müdiri Asif Nəsibov şikayətlərlə bağlı ona açıq şəkildə meydan oxuyub:** "Deyir ki, kimə istəyirsən şikayət et, xeyri yoxdur, mənə heç kim bata bilməz".

Vüsalə Balayeva deyir ki, şöbədə işlədiyi illər ərzində sağlamlığı pisləşib və ona bronxial astma diaqnozu qoyulub. Ağır kimyəvi maddələrlə təmasda işləyən dezinfeksiya işçisi üçün bu, ciddi riskdir. Buna baxmayaraq, o, işini davam etdirib ki, özü də, himayəsində olan anası da son ümid yeri olan işindən məhrum olmasın.

Əlindəki sübutlarla məhkəməyə müraciət edən zərərçəkən xanım artıq bütün lazımi dövlət qurumlarına müraciət etdiyini deyir. İş məhkəmədədir. Onun sözlərinə görə, əlində xəstəlik vərəqi, diaqnoz sənədləri, işdən azad olunma əmri, izahat və digər bütün sübutlar var. Lakin o, özünü tək və müdafiəsiz hiss edir.

YENİ MÜSAVAT

Son səhifə

N 223 (8833) 9 dekabr 2025

Dekabr

## Bunları bilirsinizmi?

* Heyronlar saatda 240 kilometr sürətlə siqnal ötürürlər.
* İnsanın ürək ritmləri və mimikası qulaq asdığı musiqidən asılı olaraq dəyişir.
* Yatmayanda insan beyni bir lampa üçün kifayət edəcək qədər elektrik enerjisi istehsal edə bilər.
* İnsan sümüyü poladdan möhkəmdir. Belə möhkəmliyə baxmayaraq sümüklərin 31 faizi sudan ibarətdir.
* İnsan gözü kamera kimi qiymətləndirilsə, o, 576 meqapiksel olar. Müqayisə üçün deyək ki, ən güclü fotoaparat olan Mamiya DSLR da bu rəqəm 80 meqapikseldir. Ən yüksək rəqəmə malik cihazın qiyməti isə 34 min dollardır.
* İnsan gözü 10 min rəngi seçə bilir.
* Əgər insan DNT-ni açmaq olsa, 16 milyard km-lik zəncir yaranardı. Bu isə Yerdən Plutona və əks istiqamətdə olan məsafə qədərdir.
* İnsan yaddaşı 1 kvadrillion bit informasiya saxlaya bilər.
* İnsan ürəyi orta ömürü ərzində 1,5 milyon barel qan vurur - bu 200 dəmiryol sisternini doldurmağa yetir.
* İnsan orqanizmi saatda 180 milyon qırmızı qan hüceyrəsi yaradır.



## Avstraliyada tapılmış qalıqlar köpəkbalığına dair fikirləri dəyişdi

**Alimlər Avstraliyanın şimalında təxminən 115 milyon illik lamnokimilər dəstəsindən olan köpəkbalığına aid qalıqlar aşkar ediblər. Tapıntı göstərir ki, bu iri okean köpəkbalıqları əvvəllər düşündüyündən çox daha erkən dövrlərdə böyük ölçülərə çatıb. Oxu.Az xəbər verir ki, tədqiqat "Communications Biology" jurnalında dərc olunub. Qalıqlar Darvin şəhəri yaxınlığındakı sahildə tapılıb, təbaşir dövründə bu ərazi Tetis okeanına daxil idi. Adətən köpəkbalıqlarının yalnız dişlər qalır, çünki onların skeleti qığırdaqdan ibarətdir.**

Buna görə də böyük fəqərələrin tapılması çox nadirdir. Aşkar edilmiş beş fəqərə müasir ağ köpəkbalığının fəqərələrinə təəccübləndirici dərəcədə bənzəyib. Lakin yetişkin ağ köpəkbalığında fəqərələrin diametri təxminən 8 sm olduğu halda, Darvində tapılan qədim yırtıcının fəqərələri 12 sm-dən geniş olub. Fəqərələrin morfologiyası onların kardabiodontidlərə aid olduğunu göstərib - təxminən 100 milyon il əvvəl dünya okeanında yaşamış nəhəng yırtıcı köpəkbalıqları. Ancaq yeni məlumatlar göstərir ki, Darvində tapılan lamnokimilər kardabiodontidlərdən təxminən 15 milyon il daha qədimdir və artıq o dövrdə həmin ölçülərə çatırdılar. Tədqiqatçıların hesablamalarına görə, bu köpəkbalıqları 6-8 metr uzunluğa çatıb, 3 tondan çox çəkiyə malik olublar.

# Yuxu hormonlarına təsir göstərən amillər



**Yaxşı yuxu yatmaq bağırsaqdan başlayır. Mütəxəssislərin qeyd etdiyinə görə, bağırsaq mikroblarının tərkibindəki pozuntular yuxusuzluğa, yatmazdan əvvəl narahatlığa və sirkad ritmlərin pozulmasına səbəb ola bilər. Oxu.Az "The Conversation" nəşrinə istinadən xəbər verir ki, bağırsaq və beyin mürəkkəb siqnallar şəbəkəsi vasitəsilə bir-birinə bağlıdır. Onun ən məşhur komponenti məlumatın iki istiqamətli ötürülməsini təmin edən azan əsəbdir. Araşdırmalara görə, azan əsəbin aktivliyinin artması sinir sisteminin daha sakit tonusuna və yuxuya keçidin daha hamar olmasına yardım edir. Lakin rol oynayan təkcə sinir yolları deyil. Bağırsaq mikrobları metobolitlərdən tutmuş neyromediatorlara qədər çoxlu bioloji aktiv maddələr istehsal edir və bunlar yuxu hormonlarına təsir göstərir. Sutkalıq ritmləri tənzimləyən serotoninin böyük hissəsi məhz bağırsaqda sintez olunur. Melatonin də burada gecə yuxululuğuna cavabdeh olan hormon buraxır. Mikrob balansı pozulduqda - yəni disbioz zamanı - siqnallar xaotik olur. Bu isə yuxuya təsir edir: yuxuya getmək çətinləşir, gecə oyanmaları artır.**

## 6 saatdan az yatsaq nə olar? - həkimdən xəbərdarlıq



**Kardioloq Günay Qasımova 6 saatdan az yatanlara xəbərdarlıq edib.**

Həkim bu şəxsləri gözləyən təhlükələrdən danışıb: "Birincisi, insult, ikincisi infarkt olma riski artır. Həmçinin şəkər, təzyiq, xərçəng, alzaimer xəstəliyi yarana bilər. İmmunitet sistemi zəifləyir, bunun nəticəsində də infeksiyon xəstəliklərə tutulma riski artır. Daha çox çəki alırıq və ən əsası tez qocalırıq. İnsanlar bir müddət 6 saatdan az yatdıqda heç bir fəsadın olmadığını düşünürlər. Zaman keçdikcə hansısa xəstəliklə qarşılaşdıqda unutmamalıdırlar ki, bu, 6 saatdan az yatmağın nəticəsidir".

# Qadınlar ayaqlarını çarpazlaşdırdıqda özlərini daha inamlı hiss edirlər



**Kişilərin ictimai yerlərdə geniş ayaq açaraq oturma vərdişi "mənspredinq" tez-tez tənqid olunur. Qadınlar isə əksinə, daha çox ayaqlarını skresləyərək otururlar.**

Milli.Az xəbər verir ki, bu davranışın arxasında həm vizual, həm də psixoloji səbəblər dayanır.

Vizual baxımdan bu poz stilizə olunmuş ayaqqabını və qadın ayaqlarının gözəlliyini vurğulayır. Ayaqları uzadılmış kimi göstərir və bəzən qüsurları gizlədir. Bu, xüsusilə yubka və ya paltar geyindikdə daha çox nəzərə çarpır və pozaya əlavə zəriflik qatır.

Tarixi baxımdan, skreslənmiş ayaqlar qadınların cəlbediciliyini və sosial statusunu vurğulamaq üçün də istifadə olunub. Keçmişdə bu poz "sevgi rahibələri" tərəfindən seçilirdi və sahibinin qərarlı, azad xarakterini göstərirdi. Müasir dövrdə isə bəzi insanların fikrincə, bu poz qadının açıq-saçıq xarakterini də ifadə edə bilər.

Beləliklə, skreslənmiş ayaqlar yalnız zərif görünüş üçün deyil, həm də qadının özünəinamını və mövqeyini əks etdirən bir jestdir.

## Çipsdən niyə imtina etmək lazımdır? - kardioloqlar açıqladı



**Kardioloqların fikrincə, gün ərzində sağlam qəlyanaltılar istifadə etmək artıq çəkinin və ürək xəstəliklərinin qarşısını almağa kömək edir. Lakin nəyin yeyilməsi xüsusilə önəmlidir.**

Milli.Az xəbər verir ki, "Parade" nəşri üçün danışan kardioloqlar xəstələrinə uzaq durmağı tövsiyə etdikləri qəlyanaltını açıqlayıblar - həmin məhsul çipslərdir.

Kardioloq Cek Vulfson qeyd edir ki, çipslər adətən ürək problemlərinə səbəb olan eyni maddələri özündə cəmləşdirir.

Kolumbus Batist də bunu təsdiqləyir və bildirir ki, kartof çipsləri yüksək yağ tərkibinə və yüksək temperaturda bişirildikdə yaranan akrilamidin çoxluğuna görə xüsusilə zərərlidir. Tədqiqatlar akrilamidi ürək-damar xəstəlikləri ilə əlaqələndirir. O vurğulayır ki, qarğıdalı çipsləri nisbətən daha az zərərli olsa da, bütün çipslər çox emal olunmuş məhsullar qrupuna daxildir və ürək-damar riskini artırır, ona görə də çox nadir hallarda istehlak edilməlidir.

**Çipslərin ürək sağlamlığına zərərinin səbəbləri:**

*1. Çipslər zərərli yağlar ehtiva edir*

Doktor Batistin sözlərinə görə, çipslər ilk növbədə yüksək doymuş yağ tərkibinə görə ürək üçün zərərlidir. Bu yağlar LDL xolesterolunu yüksəldir.

Amerika Kardiologiya Assosiasiyası gündəlik kalorinin 6%-indən azının doymuş yağlardan ibarət olmasını tövsiyə edir. Məsələn, "Lays Potato" çipslərinin bir porsiyasında 1,5 qram doymuş yağ - 2000 kalorilik rasionun 11%-i - və 10 qram ümumi yağ mövcuddur.

*2. Çipslər rafinə olunmuş nişasta ilə zəngindir*

Vulfson xəbərdarlıq edir ki, çipslərin kartofdan, qarğıdalıdan və ya dənli bitkilərdən hazırlanmasından asılı olmayaraq, nişasta çox sürətlə şəkərə parçalanır. Bu da qanda şəkər və insulin səviyyəsinin kəskin artmasına səbəb olur, bel və qarın nahiyəsində piylənməni artırır, həmçinin triqliserid səviyyəsini yüksəldir - bu isə ürək xəstəliklərinin ən əsas göstəricilərindəndir.

*3. Çipslərdə çoxlu duz və digər əlavə maddələr var*

Doktor Vulfson bildirir ki, rafinə olunmuş nişasta və zədələnmiş yağlarla birlikdə çipslərdəki duzun qan təzyiqinə və bədəndə maye yığılmasına təsiri, bütöv məhsullarda mövcud olan təbii duzun təsirindən tamamilə fərqlənir.

Bir porsiya kartof çipsində təxminən 140 milliqram natrium - Amerika Kardiologiya Assosiasiyasının tövsiyə etdiyi gündəlik normanın 7%-i ola bilər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABÌROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emìl SALAMOĞLU

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Son dakika" MMC-nin mətbəəsìndə çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bìlər.

Lìsenziya N: B 114
SAYI: 1.500